Xalqın qəzeti!

# Xalq qəzeti

№ 57 (30461) 14 mart 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Bu gün ölkəmizdə XI Qlobal Bakı Forumu işə başlayır




Səhifə ⇨ 3

## Azərbaycan bölgənin və Avropanın enerji təhlükəsizliyinə töhfəsini artırır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BP şirkətinin yeni baş icraçı direktoru Mürrey Aukinklosu qəbul edib.**

Mürrey Aukinklos İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.

Bakıya səfərindən məmnunluğunu ifadə edən qonaq Azərbaycanın 30 ildə qazandığı nailiyyətlər münasibətilə də təbriklərini çatdırdı, bu müddətdə ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin iqtisadiyyatımızın inkişafına yönəldilməsinin önəmini vurğuladı. Mürrey Aukinklos Azərbaycan ilə BP-nin əməkdaşlığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev uzun illər ərzində ölkəmizin BP ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini dedi. Dövlətimizin başçısı 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin önəmini vurğulayaraq, həmin dövrdən başlayaraq Azərbaycan ilə BP arasında strateji tərəfdaşlığın həyata keçirildiyini qeyd etdi. Azərbaycan Prezidenti ölkəmizdə enerji resurslarının istehsalından əldə olunan gəlirlərin iqtisadi, sosial və bütün digər sahələrin inkişafına səmərəli surətdə yönəldildiyini bildirdi.

Görüşdə ölkəmizlə əməkdaşlığın nəticələrindən biri olaraq Azərbaycanın bölgə və Avropa dövlətlərinin enerji təhlükəsizliyinə, xüsusilə dayanıqlı qaz təchizatına töhfəsinə toxunuldu, yeni dövrdə ölkəmizin karbohidrogen enerji resursları ilə yanaşı, bərpaolunan enerji mənbələrinin potensialı qeyd edildi, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə bu il BP şirkəti tərəfindən bu istiqamətdə layihənin həyata keçiriləcəyi vurğulandı.

Söhbət zamanı BP ilə SOCAR arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

## Çoxşaxəli siyasətin uğurları



Səhifə ⇨ 4

## Qanunsuz qrantlar təkcə media azadlığını deyil, həm də milli təhlükəsizliyi təhdid edir




Səhifə ⇨ 5

## Separatizmə dəstək hesabatı

### Qərbdəki bəzi dairələrin siyasi taktikaları fərqli, strateji məqsədləri eynidir

**ABŞ Kəşfiyyat İcması illik hesabatını açıqlayıb. Hesabatda deyilir ki, Ermənistan və Azərbaycan arasında münasibətlər böyük ehtimalla gərgin olaraq qalacaq. Lakin Azərbaycanın "Dağlıq Qarabağı qaytarması" qeyri-sabitliyi azaldıb. Hərbi qarşıdurmanın müddəti və intensivliyi çox güman ki, məhdud olacaq.**



İki ölkə arasında gərginlik yaradan amillər kimi ikitərəfli sülh müqaviləsinin, habelə atəşkəsi təmin edəcək mexanizmin olmaması, silahlı qüvvələrin dislokasiyasının yaxınlığı və "Azərbaycanın Ermənistanla danışıqlarda öz məqsədlərinə nail olmaq üçün hərbi təzyiqdən istifadə etməyə hazır olması" (?) göstərilir. "Bundan başqa, "Dağlıq Qarabağda" hakimiyyətin etnik ermənilərdən azərbaycanlılara keçməsi və Azərbaycanın onun eksklavı ilə birləşdirən quru dəhlizə çıxış tələb etməsi silahlı qarşıdurma riskini artıracaq", – deyə hesabatda bildirilir.

Qeyd edək ki, ABŞ Kəşfiyyat İcması adlanan qurumda Birləşmiş Ştatların müxtəlif dövlət orqanlarına tabe olan 17 kəşfiyyat qurumu cəmləşib. Bunlar Mərkəzi Kəşfiyyat İdarəsi, ABŞ Dövlət Departamentinin 2, Maliyyə Nazirliyinin 1, Müdafiə Nazirliyinin 8, Energetika Nazirliyinin 1, Daxili Təhlükəsizlik Nazirliyinin 2 və Ədliyyə Nazirliyinin 2 qurumudur. Kəşfiyyat İcmasına ABŞ Milli Kəşfiyyatının direktoru rəhbərlik edir. Direktor həm də ABŞ Prezidentinin kəşfiyyat məsələləri üzrə müşaviridir.

Görünür, bu təşkilatlarda kimlərsə, həqiqətən də, Azərbaycanın Ermənistana hücum etməsini arzulayır. Yayılmış hesabat da həmin bu arzu və istəklərin nəticəsidir. Artıq bir neçə aydır ki, Qərb mediasının, ekspertlərinin və hətta bəzi rəsmilərin danışdıqları yalnız budur. Nəhayət ki, növbə kəşfiyyatçılara da çatıb. Hesabat təkcə ABŞ-la bu və ya digər dərəcədə qarşıdurma vəziyyətində olan ölkələr (Çin, Rusiya, İran, Şimali Koreya) haqqında deyil, həm də planetin silahlı münaqişələrin baş verdiyi, yaxud potensial olaraq baş verə biləcəyi bütün nöqtələr haqqında məlumatları əks etdirir.

Ermənistan–Azərbaycan münasibətləri hesabatda iki bölmədə nəzərdən keçirilir. Əvvəlcə "Rusiya" bölməsində buna yüngülcə toxunulub. Cənubi Qafqazla bağlı məsələyə Rusiyanın geosiyasi mövqeyi prizmasından yanaşılır. Bildirilir ki, Ermənistan, Moldova və bəzi Mərkəzi Asiya dövlətlərinin alternativ tərəfdaşlar tapmaq üçün yeni səyləri Ukraynadakı müharibənin hətta postsovet məkanında Moskvanın təsirini necə sarsıtdığını göstərir.

Rusiyanın 2023-cü ilin sentyabrında Azərbaycanın "Dağlıq Qarabağı" etnik ermənilərdən geri almasının qarşısını almaq üçün resurslarını və siyasi kapitalını xərcləmək istəməməsi Moskvanın Ukraynadakı müharibəsinin onun regional təhlükəsizliyin arbitri rolunu necə zəiflətdiyini vurğulayır.

Qeyd etmək lazımdır ki, antiterror tədbirləri etnik ermənilərə qarşı deyil, ölkəmizin Qarabağ iqtisadi rayonunda möhkəmlənmiş Ermənistan ordusunun qalıqlarına qarşı həyata keçirilib. Rusiyanın bölgədə rolunun zəifləyib-zəifləməməsi isə bizimlə az-çox əlaqəsi olmayan məsələdir. Azərbaycan xalqı və dövləti "dəmir yumruq" kimi birləşərək 2020-ci ildə Vətən müharibəsi aparıb və torpaqlarını işğaldan azad edib.

Həmin vaxt Ukraynadakı müharibənin başlanmasına 2 il vaxt qalırdı. Beləliklə, Azərbaycanı regional siyasi qarşıdurmalara çəkmək cəhdləri faydasızdır. Ölkəmiz heç zaman böyük dövlətlərin qarşıdurmasında tərəf olmayıb. Yalnız özünün milli maraqlarını qoruyub. Bu baxımdan ABŞ Kəşfiyyat İcmasının 2023-cü ildəki antiterror tədbirlərini nələrləsə əlaqələndirməsi absurddur. Azərbaycan hələ 2020-ci ildə regionda yeni geosiyasi reallıqlar yaradıb.

Ermənistan–Azərbaycan qarşıdurmasının növbəti və sonuncu qeydi "Münaqişələr və qeyri-sabitlik" bölməsinin "Potensial dövlətlərarası münaqişələr" bölməsində verilmişdir. Hesabat müəllifləri burada iki ölkənin münasibətlərindən daha ətraflı bəhs edirlər. Amerika kəşfiyyatçıları qarşıdurmanın mütləq baş verəcəyinə şübhə etmirlər.

(ardı 5-ci səhifədə)



## "Zvartnots" – davakar erməni avantürizminin növbəti ünvanı

### İrəvanın anti-Azərbaycan ritorikası və Qərbin Cənubi Qafqaza havadan soxulmaq cəhdindəki spesifik məqamlar

**Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Ermənistanın ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yolun "Azərbaycandan – Azərbaycana yol" məntiqi ilə razılaşmamasına, habelə həmin yolda təhlükəsizliyin təminatı ilə bağlı işlərin Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən həyata keçirilməsinə etiraz etməsinə və bu iki məqamı ölkənin ərazi bütövlüyünün və suverenliyinin pozulması kimi qiymətləndirməsinə münasibət bildirmiş və demişdi: "10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan-Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər?"**

Məlum olduğu olduğu kimi, Gürcüstan istisna olmaqla, digər sərhədlərində Rusiya hərbçilərinin keşik çəkdikləri Ermənistanın iqtidarı hava sərhədinə özü nəzarət etmək barədə qərar verib. Söhbət Rusiya sərhədçilərinin "Zvartnots" hava limanından çıxarılmasından gedir. O da məlumdur ki, məsələni ilk gündəmə gətirən ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryan olmuşdu. O, martın 6-da jurnalistlərə açıqlamasında bildirmişdi ki, Ermənistan tərəfi "Zvartnots" hava limanından Rusiya hərbçilərinin çıxarılması ilə bağlı Moskvaya rəsmi müraciət ünvanlayıb. Qriqoryanın sözlərinə görə, hava limanında rus sərhədçilərin ermənistanlı hərbçilərlə əvəzlənməsi üçün bütün imkanlar var və hakimiyyətin mövqeyi ondan ibarətdir ki, orada Ermənistan Sərhəd Xidməti fəaliyyət göstərsin. Həmin vaxt Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov İrəvanın qərarının Kremlə rəsmi şəkildə çatdırılmadığını açıqlamışdı.

***

Ancaq Ermənistan baş naziri Nikol Paşinyanın martın 12-də keçirdiyi mətbuat konfransında söylədiklərindən sonra D.Peskov Rusiyanın sözügedən qərarla əlaqədar təfərrüatlardan xəbərdar olduğunu vurğuladı. Kremlin sözçüsü başqa nələrdən söz açdı, diqqətə çatdıracağıq.

Əvvəlcə vurğulayaq ki, erməni baş nazir A.Qriqoryanın fikirlərinə münasibət xüsusunda Moskvaya ölkəsinin sərhədçilərinin avqustun 1-dən etibarən "Zvartnots"da müstəqil xidmətə başlayacaqlarının bildirildiyini açıqladı. O dedi ki, Ermənistan Sərhəd Xidməti böyük təcrübə toplayıb və paytaxtın hava limanına sərbəst nəzarəti gerçəkləşdirmək potensialındadır: "Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu məsələni necə səsləndirib bilmirəm. Lakin müvafiq qurumlarımız Rusiyaya rəsmi məktub göndərərək, dəstək olduqlarına görə onlara minnətdarlıqlarını bildiriblər", - deyən Paşinyanın, öz aləmində, diplomatik davrandığı, guya, Moskvaya nəzakət göstərdiyi diqqətdən yayınmır. Peskova gəldikdə isə Rusiya Prezidentinin mətbuat katibi məsələ ilə bağlı bunları deyib: "Həqiqətən də bununla bağlı qurumun (Ermənistanın Sərhəd Xidmətinin – red.) məktubu daxil olub və hazırda (hər iki ölkənin – red.) qurumların xətti ilə təmaslar həyata keçirilir. İndi bundan əlavə bir şey deyə bilmərəm. Təbii ki, bütün mümkün səviyyələrdə təmaslar davam edəcək".

(ardı 6-cı səhifədə)

## Orta Dəhliz – Şərqdən Qərbə mötəbər körpü



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin rəhbərliyini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

Görüşdə Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa İdarə Heyətinin üzvlərini qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Vayra Vike-Freyberqa İlham Əliyevi prezident seçkilərində qələbə münasibətilə təbrik edərək vurğuladı ki, bu, Azərbaycan xalqının dövlətimizin başçısına böyük inam və etimadının təzahürüdür. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, həmçinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və ölkəmizin COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycan üçün çox böyük nailiyyət olduğunu dedi. O qeyd etdi ki, bu, Azərbaycanın dünyada yaşıl enerji sahəsində də qlobal liderliyinin təcəssümüdür.

Vayra Vike-Freyberqa artıq XI Qlobal Bakı Forumunun Azərbaycanda keçirildiyini deyərək builki forumun iştirakçıları arasında keçmiş dövlət və hökumət başçılarının, xarici işlər nazirlərinin, müxtəlif ölkə, beynəlxalq təşkilat, özəl və vətəndaş cəmiyyəti sektorlarının nümayəndələrinin, digər rəsmilərin, ümumilikdə 350-dən çox qonağın olduğunu diqqətə çatdırdı. O, bu forumda qlobal gündəlikdə duran siyasi, təhlükəsizlik, iqtisadi, maliyyə və digər məsələlərin müzakirə olunacağını, həll yolları ilə bağlı tövsiyələrin veriləcəyini qeyd etdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin öz növbəsində Azərbaycana təbriklərini çatdırdı və XI Qlobal Bakı Forumunun yeni uğurlara imza atacağına ümidvar olduğunu bildirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin də COP29-a sədrlik və bu sessiyaya ev sahibliyi prosesində Azərbaycana öz dəstəyini verməyə hazır olduğunu dedi, Mərkəzdə COP prosesində iştirak etmiş çoxsaylı mütəxəssislərin olduğunu vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, forumun işinə uğurlar arzuladı. Azərbaycan Prezidenti XI Qlobal Bakı Forumunun da beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından mühüm platforma olduğunu qeyd etdi. Hazırda Azərbaycanın bu tədbirin nəticəyönümlü olması istiqamətində həm mahiyyət, həm də təşkilati nöqteyi-nəzərdən hazırlanması baxımından bütün lazımi tədbirləri həyata keçirdiyini diqqətə çatdırdı. Azərbaycanın qazıntı yanacağı ixrac edən ölkə olması ilə bərabər, yaşıl keçid istiqamətində də çox vacib layihələri icra etdiyini dedi. Prezident İlham Əliyev vurğuladı ki, beynəlxalq ictimaiyyətin yekdil dəstəyi sayəsində COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərar Azərbaycana olan böyük etimadın təzahürüdür. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyini uğurla başa çatdırdığını xatırladan dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın bu Hərəkata sədrliyi, müxtəlif beynəlxalq təşkilatlarda fəal rolu və təmsilçiliyi COP29-a sədrliyin də uğurla başa çatdırılması üçün əlverişli imkanlar yaradır. Prezident İlham Əliyev Azərbaycanın bu tədbirə ev sahibliyi edərək qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə prosesinə və milli səviyyədə olan uğurlu addımları ilə yaşıl keçid prosesinə töhfə vermək əzminin və niyyətinin olduğunu qeyd etdi. Hazırda qlobal istiliyin 1,5 dərəcədən çox artmasının qarşısının alınmasının və ya bu çərçivədə saxlanılması üzrə bütün səylərin səfərbər olunmasının vacibliyini qeyd edən Azərbaycan Prezidenti COP29-un xüsusilə iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunduğunu nəzərə alaraq, ölkəmizin bu istiqamətdə bütün beynəlxalq səyləri səfərbər edəcəyini dedi, hazırda Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri və Braziliya ilə birlikdə COP29 çərçivəsində "üçlük" formatında ardıcıl işlər apardığını bildirdi. Dövlətimizin başçısı Xəzər və Qara dənizi birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsindən danışdı.

Görüşdə qlobal və regional gündəlikdə duran məsələlər, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi ətrafında fikir mübadiləsi aparıldı, ölkəmizin regional sülh gündəliyini dəstəklədiyi qeyd edildi. Prezident İlham Əliyev sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplərin və sülh müqaviləsinin layihəsinin də məhz Azərbaycan tərəfindən hazırlanaraq təqdim olunduğunu və ölkəmizin Cənubi Qafqaz regionunda sülh gündəliyini yaxından dəstəklədiyini diqqətə çatdırdı.

Söhbət zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işləri qeyd edildi. Qonaqların özləri də həmin ərazilərimizə dəfələrlə səfər etdiklərini deyərək, bu ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinin nümunəvi xarakter daşıdığını və onlarda zəngin təəssürat yaratdığını dedilər.

Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid bir geosiyasi məkan olaraq siyasi, iqtisadi, nəqliyyat, logistika və digər sahələrdə dinamik surətdə inkişaf edən əməkdaşlığı nümunə kimi qiymətləndirildi. Orta Dəhlizin əhəmiyyətinə toxunularaq, bu xüsusda Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə birgə həyata keçirdiyi layihələrin önəmi qeyd edildi, ölkəmizin Avropanın, xüsusən də Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Görüşdə Azərbaycanın Avropa ölkələrinə qaz ixracı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurası Bakı Forumunun fəal iştirakçısıdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.**

Binəli Yıldırım Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada artan nüfuzunu qeyd etdi, onun vacib beynəlxalq məsələlərin müzakirə edildiyi platforma olduğunu diqqətə çatdırdı. O, XI Qlobal Bakı Forumunun da uğurla keçəcəyinə əminliyini bildirdi. Binəli Yıldırım Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri olaraq hər zaman göstərilən dəstəyə görə İlham Əliyevə təşəkkürünü ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanda prezident seçkilərindən sonra həmişə olduğu kimi, ənənəyə uyğun olaraq ilk rəsmi səfərini məhz Türkiyəyə etdiyini vurğuladı və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla apardığı müzakirələri məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, əlaqələrimizin müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Əli Əsədovun Ümumdünya Buxara Yəhudiləri Konqresinin prezidenti ilə görüşü

**Martın 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ümumdünya Buxara Yəhudiləri Konqresinin prezidenti Lev Levayev ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Prezident İlham Əliyevin Azərbaycanda tolerantlığın möhkəmləndirilməsi və multikultural dəyərlərin təbliği istiqamətində apardığı ardıcıl siyasətin uğurla həyata keçirildiyi qeyd olunub.

Həmçinin vurğulanıb ki, ölkədə bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının sülh və əmin-amanlıq şəraitində yaşaması üçün hər cür şərait yaradılıb.

**XQ**

# Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizdə tibbi islahatları təqdir edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.**

Tedros Adhanom Qebreyesus İlham Əliyevi Prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə XI Qlobal Bakı Forumunun əhəmiyyəti qeyd edildi, Tedros Adhanom Qebreyesusun bu tədbirdə iştirakının önəmi vurğulandı. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq aləmdə nüfuzunun artdığı bildirildi və bu forumda xeyli sayda qonağın iştirakı bunun yaxşı göstəricisi kimi dəyərləndirildi.

Qonaq Ümumdünya Səhiyyə Təşkilatı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında əməkdaşlıqdan məmnunluğunu bildirərək bu mərkəzin onun rəhbərlik etdiyi təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi və Mərkəzin İdarə Heyətinin üzvləri ilə mütəmadi olaraq görüşlər keçirdiyini qeyd etdi.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq statuslu qeyri-hökumət təşkilatı olaraq müstəqil şəkildə fəaliyyət göstərdiyini və ölkəmizin də bu təşkilatın işinə dəstək verdiyini vurğuladı. Dövlətimizin başçısı hər il Bakının ev sahibliyi ilə keçirilən Qlobal Forumun beynəlxalq gündəlikdə duran məsələlərinin müzakirəsi və onların həlli yollarının tapılması baxımından əhəmiyyətli platformalardan biri olduğunu qeyd etdi.

Ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarının təqdirəlayiq olduğunu deyən Tedros Adhanom Qebreyesus Azərbaycanda yaradılan icbari tibbi sığorta sisteminin müsbət proses olduğunu və onun yaxşı nəticələrinin artıq özünü göstərdiyini dedi.

Görüşdə COP çərçivəsində Azərbaycan ilə ÜST arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqlim dəyişmələrinin dünyada müxtəlif növ xəstəliklərin yayılmasına rəvac verdiyini və bilavasitə səhiyyə ilə bağlı olduğunu vurğulayan Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru bu sahədə də Azərbaycan ilə əməkdaşlıq məsələlərinə toxundu.

# Azərbaycan COP-29 çərçivəsində Çinlə əməkdaşlığa hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.**

Vu Honqbo İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, Çin Prezidenti Si Cinpinin bu münasibətlə dövlətimizin başçısına təbrik məktubu göndərdiyini xatırladı və Çin Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, həmçinin COP29-un Azərbaycanda keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə və Çin Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Qonaq Prezident İlham Əliyevin güclü rəhbərliyi ilə Azərbaycanın siyasi, iqtisadi, sosial və digər sahələrdə çox ciddi nailiyyətlər əldə etdiyini vurğuladı.

Vu Honqbo qeyd etdi ki, 2022-ci ildə Azərbaycan və Çin prezidentləri arasında Səmərqənddə keçirilmiş görüş əlaqələrimizin inkişafına böyük təkan verib və bundan sonra münasibətlərimizdə yeni nailiyyətlər əldə edilib. Qonaq bu gün Azərbaycan-Çin münasibətlərinin tarixdə ən yüksək səviyyədə olduğunu vurğuladı.

Dövlətimizin başçısı Çin Prezidenti ilə Səmərqənddə keçirilmiş görüşü məmnunluqla xatırladı və həmin görüş əsnasında müzakirə olunan məsələlərin irəli aparılması istiqamətində hər iki tərəfin ciddi səylər göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Çin ilə əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaqda maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı COP çərçivəsində də ölkəmizin Çin ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirdi, Çinin bərpaolunan enerji sahəsində mükəmməl texnoloji nailiyyətlərə imza atdığını, bu sahədə Azərbaycanın Çinlə əməkdaşlığa hazır olduğunu dedi. Prezident İlham Əliyev yaşıl keçidin Azərbaycanın prioritetlərindən biri olduğunu qeyd edərək, bu sahədə birgə istehsal müəssisələrinin yaradılmasında da ölkəmizin maraqlı olduğunu bildirdi.

Qonaq Azərbaycanın Çinin ərazi bütövlüyünə göstərdiyi davamlı və qətiyyətli dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəklədiyini və Tayvanın müstəqilliyini tanımadığını, orada keçirilən seçkiləri qəti şəkildə pislədiyini vurğuladı.

Vu Honqbo Azərbaycan ilə Çin arasında əlaqələrin qarşılıqlı etimad əsasında inkişaf etdiyini vurğuladı, ikitərəfli münasibətlərin çox yaxşı səviyyədə olduğunu dedi. Qonaq "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan-Çin əməkdaşlığını və Orta Dəhlizin ölkəsi üçün böyük əhəmiyyətə malik olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Orta Dəhlizin mühüm strateji əhəmiyyətə malik olduğunu və Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini qeyd etdi, Orta Dəhlizin inkişafı istiqamətində Azərbaycan, Qazaxıstan və Gürcüstanın birgə müəssisə yaratdığını bildirdi. Bu xüsusda ölkəmizin Çinlə də əməkdaşlığa hazır olduğunu qeyd edərək, Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı Çindən olan yük qatarının Bakıda qəbul edilməsinin mühüm məqam olduğunu vurğuladı və bunu Orta Dəhlizin nəqliyyat potensialının nümayişi kimi qiymətləndirdi.

Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XI Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı, bu çərçivədə də mühüm müzakirələrin aparılacağını qeyd etdi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanla Çinin qarşılıqlı dəstəyi və bu xüsusda əməkdaşlıq, həmçinin ölkələrimiz arasında mədəni-humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi yüksək qiymətləndirildi.

# BMT-nin Sivilizasiyalar Alyansı Bakı prosesinə dəstək verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.**



Migel Anxel Moratinos İlham Əliyevi prezident seçkilərində qələbəsi və Azərbaycanın COP29-un sədri seçilməsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Qonaq ölkəmizin qazandığı nailiyyətlərin heyranedici olduğunu və Azərbaycanın Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğuladı. O, BMT-nin Sivilizasiyalar Alyansı ilə Azərbaycan arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edərək verilmiş dəstəyə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29 çərçivəsində Dünya Dini Liderlərinin iqlim dəyişmələrinə qarşı mübarizəyə dəstək mövzusunda da tədbirlərinin keçiriləcəyi qeyd olundu, bu xüsusda əməkdaşlıq məsələlərinə toxunuldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirildi, onun beynəlxalq səviyyədə ən mühüm platformalardan birinə çevrildiyi vurğulandı. XI Qlobal Bakı Forumunda da dünyanın müxtəlif regionlarını təmsil edən çox sayda iştirakçının olduğu, burada aktual məsələlərin müzakirə ediləcəyi bildirildi.

Görüşdə Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanda uğurla keçirildiyi və bu ənənənin bundan sonra da davam edəcəyi vurğulandı. BMT-nin Sivilizasiyalar Alyansının Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşı olaraq öz dəstəyini daim göstərdiyi qeyd edildi.

Söhbət zamanı Avropa ölkələrində artan islamofobiya meyillərindən narahatlıq ifadə olundu.

**AZƏRTAC**

# Pakistan İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Asif Əli Zərdariyə

**Hörmətli cənab Prezident!**

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Qardaş Pakistan ilə möhkəm təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında yüksək səviyyəli qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə əlaqələrimizin daha da genişləndirilməsi üçün əlverişli zəmin yaradır.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Pakistan strateji tərəfdaşlığının və müttəfiqliyinin möhkəmləndirilməsi və dərinləşdirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın xoş ənənələrinin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının əmin-amanlığı və firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2024-cü il**

# Roma Papası Fransisk Həzrətlərinə

**Zati-müqəddəsləri!**

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk. Aramızda uzun illərdən bəri təşəkkül tapmış səmimi dialoq və qarşılıqlı anlaşma ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri arasında həmrəyliyin bərqərar olmasına xidmət edir.

Azərbaycanın multikulturalizm və inklüzivlik ənənələrinə, dünyada dinlərarası və mədəniyyətlərarası qarşılıqlı anlaşmanın təşviqində roluna verdiyiniz yüksək qiymətə görə Sizə təşəkkürümü ifadə edirəm.

Əminəm ki, Azərbaycan-Müqəddəs Taxt-Tac nümunəvi əməkdaşlığı bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin bərqərar edilməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə ali missiyanızda uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2024-cü il**

# Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Vahid Rasim oğlu Hacıyev Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**2.** "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3699 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1527 (Cild I) ləğv edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2024-cü il**

# Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Məsim Əhməd oğlu Məmmədov Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**2.** "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 mart tarixli 3806 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 411 (Cild I) ləğv edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə və 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2024-cü il**

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bəndə "Nazirliyi," sözündən sonra "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi," sözləri əlavə edilsin və həmin bənddən ", Bakı Nəqliyyat Agentliyi" sözləri çıxarılsın;

1.2. 2.4-cü bəndə "habelə" sözündən sonra "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin," sözləri əlavə edilsin və həmin bənddən ", Bakı Nəqliyyat Agentliyinin" sözləri çıxarılsın;

1.3. 2.8-ci, 2.9-cu, 2.22-ci və 2.23-cü bəndlərdə "Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi" sözləri "Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.4. 2.11-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

1.5. 2.12-ci bəndə "Respublikasının" sözündən sonra "Rəqəmsal İnkişaf və" sözləri əlavə edilsin;

1.6. 2.21-ci bənddə "Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.7. aşağıdakı məzmunda 2.21-1-ci bənd əlavə edilsin:

"2.21-1. həmin Qanunun 9-cu maddəsinin IX hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə svetoforlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, yol nişanları, nişanlama xətləri və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;";

1.8. 2.25-ci bənddə "Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.9. 2.31-ci bənddən ", 59-cu maddəsinin 12-ci hissəsində, 61-ci maddəsinin 11-ci hissəsində, 69-cu maddəsinin 2-ci hissəsində" sözləri çıxarılsın və həmin bənddə "Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.10. 2.31-1-ci (hər iki halda), 2.34-cü, 2.35-ci və 2.37-ci (hər iki halda) bəndlərdə "Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.11. 2.32-ci bənddə ", Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi" sözləri "və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.12. 2.36-cı bənddə "11-ci hissəsində və 61-ci maddəsinin 10-cu hissəsində" sözləri "XI və XII hissələrində" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla)" sözləri çıxarılsın;

1.13. 2.36-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.36-1. həmin Qanunun 61-ci maddəsinin X hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;";

1.14. aşağıdakı məzmunda 2.36-2-ci və 2.36-3-cü bəndlər əlavə edilsin:

"2.36-2. həmin Qanunun 61-ci maddəsinin XI hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.36-3. həmin Qanunun 69-cu maddəsinin II hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə yol nişanlanmasına və yol nişanlarının tətbiqinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla), svetoforların tətbiqinə münasibətdə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2024-cü il**

# Əlaqələndirmə Qərargahının növbəti iclası



**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası keçirilib.**

Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq, fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində Azərbaycan xalqının öz güclü liderinə olan inamını və etimadını, dövlətimizin başçısının ölkəmizin inkişafı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə dəstəyini bir daha ifadə etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, builki seçkilərin əsas xüsusiyyəti və önəmi ondadır ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq xalqımız ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş qalib ölkənin vətəndaşları olaraq seçkidə iştirak ediblər. Budəfəki seçkinin ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və işğaldan azad edilmiş digər yerlərdə keçirilməsinin hər bir azərbaycanlı üçün tarixi və qürurverici hadisə olduğu vurğulanıb.

İşğaldan azad edilmiş ərazilərdə dövlətimizin başçısının verdiyi tapşırıqlara uyğun olaraq ötən dövr ərzində genişmiqyaslı yenidənqurma və bərpa tədbirlərinin görüldüyü, keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışı istiqamətində işlərin planlı və əlaqələndirilmiş şəkildə davam etdirildiyi Qərargahın rəhbəri tərəfindən qeyd olunub.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında şəhərsalma fəaliyyəti, o cümlədən şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması, bərpası, nəqliyyat infrastrukturunun yaradılması, rabitə xidmətinin təşkili, eyni zamanda, azad edilmiş ərazilərin iqtisadi dayanıqlığının təmini, əhalinin məskunlaşması və məşğulluq məsələləri ilə bağlı görülən işlər üzrə məruzələr dinlənilib.

Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş müvafiq əraziləri üzrə xüsusi nümayəndəliklərinin yerlərdəki fəaliyyəti çərçivəsində görülən işlər və 2024-cü ildə qarşıda duran planlar barədə xüsusi nümayəndələr tərəfindən məlumatlar verilib.

Qərargahın rəhbəri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələrinin "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq keyfiyyətli, operativ, kompleks yanaşma tətbiq etməklə əlaqələndirilmiş şəkildə icrasının vacibliyini xüsusi vurğulayıb.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

**XQ**

# Bu gün ölkəmizdə XI Qlobal Bakı Forumu işə başlayır

**"Parçalanmış Dünyanın Bərpası" mövzusunda XI Qlobal Bakı Forumu ilə əlaqədar dünən mətbuat konfransı keçirilib.**




Tədbirdə çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa Azərbaycanda son üç ildə əldə olunmuş inkişafı görməkdən məmnunluq hissi duyduqlarını bildirib. Deyib ki, bunlar dondurulmuş münaqişələrin həlli və hələ də danışıqlar prosesində olan sülh sazişləri ilə bağlı razılığın əldə edilməsidir. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini də diqqətə çatdırıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin bildirib: "XI Qlobal Bakı Forumunda biz təkcə müharibə və sülh mövzularını deyil, iqlim dəyişiklikləri, sağlamlıq, pandemiya, yeni texnologiyalar məsələlərini də müzakirə edəcəyik".

Qlobal problemlərin qlobal həllərinin olmasının vacibliyini vurğulayan həmsədr diqqətə çatdırıb ki, tədbirdə dünyanın fərqli ölkələrindən dövlət və hökumət başçıları müxtəlif mövzularda təcrübələrini bölüşəcəklər.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev Azərbaycanın qlobal problemlərin həllində fəal iştirak etməklə yanaşı, məsələlərin müzakirəsini də təşkil etdiyini vurğulayıb. Deyib ki, Qlobal Bakı Forumu da Azərbaycanın ev sahibliyi etdiyi belə tədbirlərdən biridir.

Ötən ilin Azərbaycan üçün möhtəşəm keçdiyini vurğulayan Rosen Plevneliyev ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini xatırladıb.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç çıxışında Qlobal Bakı Forumunun ildən-ilə daha maraqlı keçdiyini və daha mühüm mövzulara toxunulduğunu qeyd edib.

Dünyanın ildən-ilə daha da mürəkkəbləşdiyini vurğulayan sabiq Prezident əlavə edib: "Bu il də biz dünyaya təsir göstərən mövzular, o cümlədən indiki müharibələri, münaqişələri və onların həll yollarını müzakirə edəcəyik".

Digər çıxış edənlər - Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziya, Ərəb Liqasının sabiq Baş katibi, Misirin sabiq xarici işlər naziri Əmr Musa, Gürcüstan Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvili, BMT Baş Assambleyasının 73-cü Prezidenti Maria Fernanda Espinosa, Robert F. İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedi tədbirin önəmindən danışıb, müzakirə olunacaq mövzuların əhəmiyyətini bildiriblər.

# Çoxşaxəli siyasətin uğurları



**İyirmi ildən çox müddət ərzində Azərbaycana uğurla rəhbərlik edən İlham Əliyevin beşinci dəfə prezident seçkilərinə qatılması və parlaq qələbəsi xalqın ləyaqətini, milli heysiyyətini, vətəndaşlıq düşüncəsini bərpa edən tarixi şəxsiyyətə ümumxalq məhəbbətinin daha bir təsdiqi oldu. İlham Əliyev 20 il ərzində Azərbaycan xalqının bütün nailiyyətlərinin təşkilatçısıdır.**

Ulu öndərin tarixi fikirləri necə də dəqiqliklə deyilmişdir: "O, yüksək intellektli, praktik düşüncəli, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev və Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı, xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm..."

Bu gün hər birimiz Ümummilli liderimizin böyük etimadının heyrətamiz dərəcədə doğrulduğunun şahidiyik...

İnkişaf təbii, iqtisadi, sosial, siyasi, mədəni, mənəvi təkamülü, keyfiyyətcə dəyişməni nəzərdə tutur. Azərbaycan xalqının yüzillikləri əhatə edən tarixi yolundakı inkişaf mərhələlərini kimsə dana bilməz. Məsələ burasındadır ki, iyirmi il ərzində Azərbaycan xalqı və İlham Əliyevin müştərək müəllifliyi ilə əldə olunmuş yekunları yalnız inkişaf göstəriciləri saymaq azdır. Çünki, o, kifayət qədər möhtəşəm milli inkişafla bərabər, müasir Azərbaycan intibahının müəllifidir. Belə müəlliflik səlahiyyəti ciddi şərtlər daxilində mümkün ola bilir. Məncə, ilk şərt odur ki, İlham Əliyev dövlət rəhbərliyinə başlayan ilk günlərdə Ulu öndərin yoluna, ümumxalq sədaqətinə üz tutdu və belə seçim dünən də, bu gün də Azərbaycanın hərtərəfli, qlobal uğurlarının müasir, milli və ideoloji əsaslarını təmin edir.

Azərbaycanın dövlət müstəqilliyi tam, dönməz, əbədi bərqərar olmuşdur. Milli iqtisadi inkişaf beynəlxalq səviyyədə nümunədir. Azərbaycanda ərazi bütövlüyünü, ölkənin sərhədlərini qorumaq qüdrətinə malik ordu yaradılmışdır. Sosial-infrastruktur quruculuğunun həm miqyası, həm keyfiyyəti, həm də görülən işlərin sürəti heyrətamizdir. İyirmi il ərzində müvafiq mərhələ ardıcıllığı ilə əhalinin həyat şəraiti yüksəlmiş, insanların təhlükəsizliyi, asayişi təmin olunmuş, hüquqi dövlət möhkəmlənmişdir.

Yenidən Prezident seçilən İlham Əliyev 2024-cü il fevralın 14-də Azərbaycan Respublikasının Milli Məclisində geniş və əhatəli, məzmunlu, cəmiyyəti maraqlandıran bütün təməl sualların cəmini cavablandıran, yekunları və perspektivləri əks etdirən nitq söylədi. Həmişə olduğu kimi, Prezidentin proqram mahiyyətli nitqi həm daxili, həm də xarici auditoriyanın diqqətini ciddi şəkildə cəlb etdi. Yeni mərhələdə də "Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyünün qorunması üçün" var gücünü sərf edəcəyini bəyan edən İlham Əliyev 2003-cü ildə verdiyi bütün vədlərin yerinə yetirildiyini, qazanılmış nailiyyətlərin mənbəyinin Azərbaycan xalqı, xalqın öz rəhbərinə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığı olduğunu bildirir: "Biz böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik," – deyir.

Möhtərəm Prezident Milli Məclisdə keçirilən andiçmə mərasimində Xankəndidə səs verməsinin səbəbini açıqladıqda ürəyimiz dağa döndü. Cənab İlham Əliyev dedi ki, Azərbaycanın istənilən yerində səs verə bilmək imkanına malik olsa da, Xankəndidə səs verməyi daha düzgün addım hesab edib. Çünki dünya erməniliyinin məhv edilmiş 200 illik məkrli planlarının ssenarilərinə əsasən, məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlanıb. Məhz Xankəndidə səs verdiyi binada xalqımıza qarşı soyqırımı planlaşdırılıb və oradan idarə olunub. Məhz səs verdiyi binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti Azərbaycana qarşı ərazi iddialarını irəli sürüb. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilib və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq olub. Otuz il bu yurd yerlərimizi işğal altında saxlayıb xarabalığa çevirən şeytanlar sonda elə bir zərbə aldılar ki, bir də çətin özlərinə gələrlər. Çünki Zəfər komandanı onların 200 illik xülyasını məhv edib. Xankəndidə seçki qutusuna atılan bülleten isə möhtərəm Prezidentimizin təbirincə desək, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi…

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ötən 20 ildə keçdiyi inkişaf yolunu xarakterizə edərkən ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial təminat sisteminin dinamikası istiqamətində görülmüş tədbirləri və əldə olunmuş uğurları xüsusilə qeyd etmək lazımdır. Həyata keçirilən çoxşaxəli islahatlar, genişmiqyaslı tədbirlər sosial dövlət quruculuğu istiqamətində böyük nailiyyətlərin əldə olunmasını şərtləndirmişdir. Ölkənin ildən-ilə artan maliyyə imkanları hər zaman vətəndaşların daha yaxşı həyat şəraiti ilə təmin olunmasına, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğuna xidmət etmişdir. Möhtərəm liderimizin səsləndirdiyi "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların mənafeyi dayanır" iqtibası ölkəmizdə reallaşdırılan sosial siyasətin mahiyyətini ifadə etməklə, cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin qayəsini "xalqa ləyaqətlə xidmət etmək" prinsipi təşkil etdiyini göstərir.

Cənab İlham Əliyev həmişə sözünə güvənilən liderdir. Bütün Azərbaycan xalqı bilir və əmindir ki, dövlətimizin başçısının sözü ilə əməli üst-üstə düşür. O, nəyi deyirsə, onu da edir, nə vəd verirsə, çox keçmədən bütün hər kəs bu vədin həyata keçdiyinə şahid olur. Prezident kimi vəzifəsinin icrasına başlayarkən, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəyini bildirən cənab Prezidentin rəhbərliyi ilə sosial həyatın elə bir sahəsi yoxdur ki, orada məqsədyönlü tədbirlər həyata keçirilməsin. Dövlət başçısının uğurlu sosial siyasətinin nəticəsi olaraq 2003-2023-cü illərdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artmışdır ki, bu rəqəm nəinki keçmiş postsovet məkanında, eləcə də dünyanın qabaqcıl dövlətləri ilə müqayisədə də ən yüksək göstəricilərdən biridir. Bu dövrdə əhalinin nominal gəlirləri 12 dəfə, orta aylıq əməkhaqqı 10,8 dəfə, pensiyaların orta aylıq məbləği 15,6 dəfə artmışdır. O cümlədən işsizliyin səviyyəsi 5,6 faizə, yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizədək enmişdir. Sözügedən dövrdə əhalinin yaşayış səviyyəsinin əsas indikatorlarından biri olan minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, minimum pensiya 14 dəfə artırılaraq 280 manata çatdırılmışdır. Həmçinin orta aylıq əməkhaqqı 12 dəfə artaraq 940 manata, orta aylıq pensiya 18 dəfədən çox artaraq 500 manata çatmışdır.

Ümumiyyətlə, cənab İlham Əliyevi həm xalqına, həm də dünyada sevdirən ən mühüm amil verdiyi sözə, vədə sadiqliyidir. Prezidentimizin sözü imzası qədər keçərlidir və bu günədək reallaşdırmadığı söz, vəd qalmayıb.

Andiçmə mərasimində Azərbaycanın daha böyük zəfərlərə doğru inamla irəliləyəcəyini söyləyən möhtərəm Prezident növbəti 7 illik fəaliyyətində də ölkə vətəndaşının maraqlarının, onun rifahının daim diqqət mərkəzində olacağını, yaşayış səviyyəsinin daha da yaxşılaşacağını söylədi.

Adı tariximizin qızıl səhifəsinə qalib xalqın qalib lideri kimi yazılan cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqi həm də çox mühüm mesajlarla yadda qaldı. Dövlət başçısı nitqində bir çox məqamlara aydınlıq gətirdi, Azərbaycanın qarşısında duran yeni hədəflərdən, nəhəng iqtisadi layihələrdən, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi istiqamətində görüləcək işlərdən söz açdı, şanlı Zəfərimizi şərtləndirən amilləri diqqətə çatdırdı, yeni prioritetlərin yol xəritəsini təqdim etdi.

Azərbaycan güclü və özünü təmin edən regional aktor qismində yeni dövrə qədəm qoyur. Hər zaman tam müstəqil siyasət yürüdən və məhz bu səbəbdən də etibarlı tərəfdaş statusuna sahiblənən dövlətimiz xarici siyasət kursunu davam etdirməlidir. Məhz bu xarici siyasət ölkəmizin nüfuzunu gündən-günə yüksəldir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi qitənin enerji xəritəsini tamamilə dəyişib. Bütün bunlar İlham Əliyevin müəllifi olduğu qlobal layihələrin hesabına reallaşıb.

Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimində çıxışı zamanı bir çox önəmli məqamlarla yanaşı, Türk dünyasının sıx əməkdaşlığına, Türk Dövlətləri Təşkilatının güclü quruma çevrilməsi məsələsinə də toxundu. Dövlət başçısı vurğuladı ki, Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bu səbəbdən də Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik: "Bu, bizim üçün prioritetdir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir". Dövlət başçısı əlavə edib ki, bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır: "Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Azərbaycan Türk Dövlətləri Təşkilatının üzvləri, Mərkəzi Asiya ölkələri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Heç təsadüfi deyil ki, Prezident seçildikdən sonra cənab İlham Əliyev ilk xarici səfərini qardaş Türkiyəyə etdi, ilk xarici qonaqlardan biri kimi isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi Azərbaycana dəvət etdi və çox uğurlu, yüksək səviyyəli qardaşlıq görüşü baş tutdu.

Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycanın xarici siyasəti bundan sonra da çox aydın və açıq olacaq. Çünki indiyədək möhtərəm Prezidentimizin yürütdüyü siyasət dünya ictimaiyyəti tərəfindən bəyənilir, dəstəklənir. Əgər belə olmasaydı, 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv, 120 ölkə Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bugünədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 bu vaxta qədər keçirilən tədbirlərlə müqayisəyə gəlmir. Çünki COP29 ərəfəsində on minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı növbəti dəfə dünyanın diqqətini çəkəcək. Müəyyən ehtimallara görə, təqribən 70-80 min əcnəbi qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Digər tərəfdən, vaxt da o qədər çox deyil. Ona görə də Prezident İlham Əliyev dərhal bütün hazırlıq işlərinə start verilməsi üçün tapşırıq verib. COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq, Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Azərbaycan Prezidentinin digər sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən, Təşkilat Komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP29-la bağlı Azərbaycandan böyük gözləntilər var: həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə əlaqədar qarşıya yeni hədəflər qoyur. Bununla yanaşı, İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

COP29 iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biri olduğu üçün Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya sübut edəcək. Bu sammit Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə mühüm təkan, ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına isə müsbət impuls verəcək.

Avropanın lider ölkələrinin rəhbərləri özləri etiraf edirlər ki, bu gün dünya siyasətçiləri, dövlət başçıları beynəlxalq tədbirlərdə cənab İlham Əliyevlə şəkil çəkdirmək üçün növbəyə dururlar.

Elə bu il fevralın 16-18-də Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət edilməsi, bu mühüm toplantıda iştirakı, konfrans çərçivəsində bir çox dövlət liderinin xahişi ilə keçirilən görüşlər bir daha sübut edir ki, dünya ölkələri, böyük iqtisadi təşkilatlar Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, cənab İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və önəmli lider hesab edirlər.

Ümumiyyətlə, Münxen Təhlükəsizlik Konfransı dünya liderlərinin, aparıcı beynəlxalq təşkilatların, nüfuzlu tədqiqat, elm mərkəzlərinin rəhbərlərinin, tanınmış ekspertlərin toplaşdıqları ən mühüm platformalardan biridir. Azərbaycan müntəzəm şəkildə bu platformaya cənab İlham Əliyevin şəxsində dəvət alır, dövlət başçısı müzakirələrdə fəal iştirak edir, qlobal və regional təhlükəsizlik məsələləri ilə bağlı öz dəyərli fikirlərini bölüşür. Prezident İlham Əliyev üç gün ərzində qarşı tərəflərin müraciətlərinə əsasən, 23 mühüm görüş keçirib. Bu görüşlər haqqında qarşı tərəfin müraciətləri və görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Görüşlərin intensivliyi Azərbaycanla əməkdaşlıq etmək istəyənlərin sayının həddən artıq çox olması ilə bağlı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cəmiyyətin və dövlətin marağında olan təhsil sahəsinin inkişafına xüsusi əhəmiyyət verir. Ötən dövrdə ölkəmizdə elm və təhsilin inkişafına böyük diqqət yetirilmişdir. Ümummilli liderimiz tərəfindən əsası qoyulmuş və xalqın gələcəyinə hesablanmış təhsil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün neft kapitalının insan kapitalına çevrilməsini prioritet məsələ hesab edən Prezident İlham Əliyev deyir ki: "Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, büdcədə təhsil xərcləri birinci yerdə olacaqdı. Bu fikir cənab Prezident tərəfindən təhsilə nə qədər böyük əhəmiyyət verildiyinin göstəricisidir. Bu gün Azərbaycanda həyata keçirilən dövlət proqramları və islahatlar çərçivəsində təhsilin bütün sahələri sürətlə inkişaf edir.

Təhsilin səviyyəsinin yüksəlməsində müəllimlərin peşəkarlığı mühüm rol oynayır. Bununla bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev demişdir: "Təhsilin keyfiyyəti artmalıdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, burada əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır. Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər".

Prezident İlham Əliyevin son iyirmi illik fəaliyyəti ölkəmizdə təhsil siyasətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. O, təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, Vətənə sədaqət, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi məsələlərini önə çəkibdir. Bunlar isə hər bir məsuliyyətli ölkə vətəndaşı, o cümlədən respublikamızın təhsil ictimaiyyəti qarşısında yeni vəzifələr qoyur.

Ermənistan tərəfindən onilliklər boyu soyqırımı, deportasiya və təhdidlərə məruz qalmış, bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan yüz minlərlə azərbaycanlının doğma Vətəninə qayıtmaq hüququnun təmin edilməsi üçün yeni bir mübarizəyə başlayaraq, Qərbi Azərbaycan İcmasının yaradılmasına xeyir-dua vermiş cənab Prezident 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasında etdiyi çıxışında vurğunu məhz bu amillərin üzərinə salmışdır: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir." Bu gün onun ideyalarını gerçəkləşdirmək uğrunda ardıcıl və yorulmaz mübarizə aparan Qərbi Azərbaycan İcması "Qayıdış Konsepsiyasını" həyata keçirmək əzmindədir.

Bütün bunlar cənab İlham Əliyevin 20 ildə həyata keçirdiyi xarici siyasətin aynasıdır. Hər kəs dövlət başçımızla görüşmək istəyir. Amma Azərbaycan Prezidenti heç kimdən nəyisə xahiş etmir. Özünün də dediyi kimi, 20 ildən çoxdur ki, Prezident kimi heç kimdən heç nə xahiş etməyib. Çünki buna ehtiyac da olmayıb. Azərbaycan özünü tam təmin edən ölkədir. Azərbaycan hər zaman ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır və xarici siyasəti də buna hesablanıb – bərabərhüquqlu münasibətlər, qarşılıqlı hörmət, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, Azərbaycanın prinsipləridir və bu prinsipləri cənab İlham Əliyev diktə edib və qəbul etdirə də bilib.

Bu gün isə Azərbaycan üçün yeni bir mərhələ başlayır. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, ən mühüm vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, 30 illik işğal dövründə tamamilə dağıdılan, talan olunan yurdlarımızın, şəhər və rayonlarımızın ən yüksək səviyyədə yenidən qurulması, orada həyatın bərpa olunması, keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasıdır. Azərbaycan dövləti bu istiqamətdə çox nəhəng tədbirlər həyata keçirməkdədir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edirlər.

İşğaldan azad edilmiş ərazilərdə ən müasir şəhərsalma nümunələri, texnologiyaları tətbiq etməklə, "ağıllı şəhər" və "ağıllı kənd"lər, bütün sosial infrastruktur, o cümlədən xəstəxanalar, məktəblər, idman obyektləri, iaşə obyektləri, yollar, tunel və körpülər inşa olunur, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılmış, elektrik və su təsərrüfatı yenidən qurulmaqdadır. Burada görülən işlər, bir çoxu üçün xəyal kimi görünən nəhəng layihələrin reallaşdırılması azad edilmiş torpaqlara gələn hər kəsi valeh edir, təəccübləndirir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur nəhəng quruculuq, dirçəliş meydanıdır. Təəssüf ki, çox insan mina qurbanına çevrilib, həyatını, yaxud sağlamlığını itirənlər var. Bununla belə ərazilər mənfur düşmənin yeraltı xəyanətindən xilas edilir; 120 min hektara yaxın ərazi təmizlənib. Əhalinin təhlükəsizliyi təmin olunduqca, həyat şəraiti yaradıldıqca azad edilmiş yurdlara əbədi qayıdış sürətlənir. İndiyəcən 5400 keçmiş köçkün beş yaşayış məntəqəsinə göndərilib. İlin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min insan yerləşdiriləcək. Böyük Qayıdış proqramının birinci mərhələsində - 2026-cı ildə dədə-baba yurdlarına dönənlərin sayı 140 min nəfərə çatacaq. Hazırda erməni vandallarının xarabazara çevirdiyi torpaqların yarasına məlhəm qoyulur. Orada bütün sosial infrastruktur əsaslı şəkildə yenidən qurulur: xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, 130-dan çox tunel və körpü inşa edilir. İqtisadiyyatın hərtərəfli inkişafı, yoxsul-luğun minimum həddə endirilməsi, xarici iqtisadi və beynəlxalq münasibətlər, insanların sosial rifah halının yaxşılaşdırılması, iş yerlərinin açılması, gəlirlərin artımı, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi kimi vacib həyati problemlərə toxunan, perspektivləri, həll yollarını göstərən Prezident İlham Əliyevin çıxışının son cümlələrini həyəcansız oxumaq olmur: "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıda-yıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik. Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək!"

Möhtərəm Prezident İlham Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin də böyük hamisidir. O, Azərbaycanın inkişaf trendlərini müəyyənləşdirərkən iqtisadi-sosial tərəqqiyə xidmət edən proqram və konsepsiyaların həyata keçirilməsində, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqində nə qədər yenilikçi, islahatçı, novator lider kimi çıxış edirsə, milli-mənəvi dəyərlərin, xalqımızın tarixi ənənələrinin qorunması məsələlərinə isə kifayət qədər mühafizəkar yanaşır. O, hər zaman xəlqi siyasət həyata keçirir və haqlı olaraq, hesab edir ki, "xalq", "millət" anlayışları ön planda olanda istənilən problem öz həllini tapa bilər. "Milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlər boyu qoruyan bizim dəyərlərimiz olub"– deyən dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan o ölkələrdəndir ki, öz inkişafını, gələcəyini milli köklər üzərində qurmuşdur. Ötən dövrdə də milli-mənəvi dəyərlərimizin, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı istiqamətində geniş tədbirlər həyata keçirilmişdir.

Artıq Azərbaycan xalqı öz şərəfli tarixinin yeni mərhələsini yaşayır. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, yeni dövrə qədəm qoyarkən bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun. Bütün xalqımız kimi mən də əminəm ki, bu ümidlər, arzular həyata keçəcək, yeni dövr də Azərbaycan xalqı üçün çox uğurlu olacaq. Bu əminlik xalqımızın öz gücünə, öz bacarığına inamla yanaşı, öz Liderinə sonsuz etimadından irəli gəlir.

İnanıram ki, möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün vədləri həyatda öz əksini tapdığı kimi, yeni dövrdə də qarşıda duran vəzifələr uğurla yerinə yetiriləcək, Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir!

***Misir MƏRDANOV,***
***AMEA-nın müxbir üzvü,***
***Riyaziyyat və Mexanika İnstitutunun direktoru***

# Qanunsuz qrantlar təkcə media azadlığını deyil, həm də milli təhlükəsizliyi təhdid edir

**Fransanın müdafiə nazir Sebastyan Lekornunun ermənistanlı həmkar Suren Papikyanla görüşləri son 2 ildə intensiv xarakter alıb. Baş nazir Nikol Paşinyanın prezident Emmanuel Makronla təmasları da eyni formada davam edib. 2024-cü il fevralın 23-də isə iki ölkə arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləyə əsasən, Fransa Ermənistanı müdafiə qurğuları ilə deyil, həm də müasir hücum silahları ilə təmin edəcək. Yəni, öz müttəfiqini hərbi baxımdan qüdrətli dövlətə çevirəcək.**




Yunanstan və Hindistan da Ermənistanın Cənubi Qafqazda hərbi baxımdan üstün dövlətə çevrilməsi prosesinə qoşulublar. Yunanıstanın milli müdafiə naziri Nikolaos Dendias martın 4-də Ermənistana səfər edib. İki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib. Qarşılıqlı yardım üçün razılaşmalar əldə olunub.

Hindistan isə Ermənistana 245 milyon dollarlıq silah tədarük etmək üçün öhdəlik götürüb. Strateji əhəmiyyət kəsb edən ixrac mallarının Ermənistana daşınması üçün keçən həftə xüsusi hava dəhlizi yaradıb...

Bu və digər faktları uyğunlaşdırıb təhlil edəndə belə nəticə çıxır ki, Ermənistanın ətrafında yeni hərbi alyans formalaşdırılır. O, Fransa başda olmaqla bir sıra dövlətlərin Cənubi Qafqazda neokalonolist siyasətini icra edəcək güc mərkəzi halına gətirilir. Təbii ki, bu xidmətinin qarşılığında öz ambisiyalarının təmin edilməsi üçün də zəmanət alır.

Amma bütün bunlar beynəlxalq ictimai rəydə fərqli formada təqdim edilir. Qərb mərkəzləri Ermənistanı hərbiləşən, qisasçılıq ruhu ilə yaşayan, regionda yeni münaqişələr planlaşdıran dövlət kimi deyil, zərərçəkən kimi təqdim edirlər. Elə rəy yaradırlar ki, guya, Azərbaycan Ermənistan ərazilərini işğal etməyə hazırlaşır. Azərbaycan rəsmiləri bir neçə dəfə yüksək səviyyədə açıqlamalar verərək, bu iddianı təkzib ediblər. Buna rəğmən, Qərb mərkəzləri Ermənistanı təcavüzə məruz qalan, Azərbaycanı isə işğala hazırlaşan dövlət kimi təqdim edirlər.

Qərb mediası bu sahədə planlı təbliğat aparır, beynəlxalq rəyi çaşdıran tezislər yayımlayır. Xüsusilə ABŞ media şəbəkəsi bu təbliğatın önündə gedir. Məsələn, ABŞ-nin Cənubi Qafqaz üzrə ixtisaslaşmış informasiya qurumu olan "JAMnews" 02 fevral 2024 tarixində yayımladığı məqaləsinə belə başlıq qoyub: "Paşinyan sülh axtarır, Əliyev isə müharibəyə hazırlaşır" (https://jam-news.net/probability-of-armenia-azerbaijan-war-opinion/ ).

Diqqət yetirsək görərik ki, "Amerikanın səsi", "Azadlıq Radiosu", "OC Media" qismində ABŞ media vasitələri, habelə France-24 TV, "Le-Monde" və digər Fransa KİV-ləri öz məqalələri ilə Azərbaycanın təcavüzkar obrazını yaratmağa çalışırlar.

Sadalanan KİV qurumlarının hərəkətləri anlaşılandır. Onlar təmsil etdikləri dövlətlərin siyasi maraqlarından çıxış edirlər. ABŞ-nin, Fransanın Cənubi Qafqaz üzrə siyasətinin realladırılmasına töhfə verirlər. Xatırladaq ki, Azərbaycanın Ermənistan üzərinə hücum etməyə hazırlaşması barədə sərsəm bəyanatı ABŞ Dövlət katibinin müavini Ceyms O'Brayn da səsləndirmişdi. O'Brayn Azərbaycana münasibətdə hansı yanlış mövqeni sərgiləyirsə, "Amerikanın səsi", "Azadlıq Radiosu" da eyni mövqedən çıxış edirlər. Yaxud Emmanuel Makron Azərbaycana qarşı hansı tezisləri səsləndirirsə, France-24 TV, "Le-Monde" də eyni fikirləri təkrarlayırlar.

Anlaşılmayan, səbəbi bilinməyən məqam Azərbaycan KİV-lərinin bu yanlış təbliğatda nə üçün rol almasıdır. "Toplum TV", "Abzas Media" və digərləri Qərbdən ötürülən zərərli tezisləri təkrarlamaqla nə məqsəd güdürlər?

Azərbaycan hüquq-mühafizə orqanları "Toplum TV" redaksiyasında axtarış apariblar. İlkin açıqlamalardan belə məlum olur ki, "qrant qaçalmalçığı" üzrə şübhələr vardır. Amma TV əməkdaşları, həmçinin onların müdafiəçiləri cəmiyyətə belə mesaj verirlər ki, guya, "tənqidi mövqedən çıxış etdiklərinə, müstəqil davrandıqlarına, həqiqətləri dediklərinə görə" axtarışa məruz qalıblar. Qərb təbliğatına qoşulub Azərbaycanı Ermənistan üzərinə təcavüzə hazırlaşmaqda ittiham etmək onların təsəvvüründə "həqiqətin təcəlləsidir". Bu, tənqid deyil, tam mənasında siyasi ittihamdır. "Toplum TV" və "Abzas Media" səhifələri bu cür "tənqidlərlə" zəngindir.

"Erməni şəbəkəsinin" təbliğatçısı, mühacir həyatı yaşayan Arif Yunus martın 11-də "Osmanqızı TV"-yə verdiyi müsahibədə deyir ki, 5 gün əvvəl – martın 6-da "Toplum TV"-yə əlində olan məxfi sənədi göndərib, ictimailəşdirilməsini istəyib. Ehtimal edir ki, Azərbaycan hüquq-mühafizə orqanları həmin məlumatın TV-yə göndərildiyini biliblər. "Faktın ictimailəşdirilməsindən ehtiyatlanaraq", TV-nin redaksiyasında axtarışa başlayıblar, onun fəaliyyətini qapadıblar. Bu baxımdan həm Arif Yunus, həm də "Osmanqızı TV" Azərbaycan hökumətini qınayırlar. "Həqiqəti deyən TV-ləri qapatdığı üçün" qınayırlar. Sözlərindən belə nəticə çıxır ki, göndərdikləri informasiyada "Azərbaycan dövləti terrorçuluqda ittiham olunurmuş". Guya, Azərbaycan səfirliyində işləyən şəxslərdən biri "Avropa ölkələrində terror aktı planlaşdırırmış" (https://www.youtube.com/live/PDZp9z-v5EXA?si=SfDGtGG86qCgi24D).

Əvvəla, hüquq-mühafizə orqanlarının "Toplum TV" barədə yaydıqları informasiyada bu detal görünmür. TV əməkdaşları hələlik yalnız qrant qaçalmalçılığında ittiham olunurlar. Amma əgər Arif Yunusun qeyd etdiyi formada təqdimat hazırlansaydı belə, onda hüquq-mühafizə orqanları deyil, "Toplum TV" qınaq obyektinə çevrilməliydi. Bu, dövləti rəsmən terrorçuluqda günahlandırmaqdır. Heç bir əsas olmadan erməni şəbəkəsinə arqument verməkdir. Qərb mərkəzlərinin Azərbaycan üzərinə ayaq açmasını təşviq etməkdir. Arif Yunusun, "Osmanqızı TV"-nin mövqeyi bəllidir. Onlar erməni şəbəkəsi tərəfindən uydurulan hər şəri, böhtanı tirajlayırlar. Azərbaycan dövlətini təzyiq altında qoymaq üçün istənilən maxinasiyaya boyun əyirlər. Bəs "Toplum TV" bu cür qondarma faktları hansı məntiqlə ictimailəşdirmək qərarına gəlib? Hüquqi təsisçi olan Ələsgər Məmmədli bu cür qondarma faktları ictimailəşdirməklə hansı məsuliyyət daşıdığının fərqinə varıbmı?

"Toplum TV" və "Abzas Media"nın səhifələri bu cür qondarma məlumatlarla zəngindir. Xarici qrantlardan asılılıq onları elə bir həddə çatdırıb ki, hüquqi məsuliyyət hissini itirib. Maliyyə qaynaqları sırasında görünən yalnız bir mənbə var ki, o da qrantlardır. Amma xəbər portalının sahibləri qrant vəsaitlərini hansı donorlardan və hansı həcmdə aldıqlarını qapalı saxlayırlar. "Qrantların qeydiyyatı haqqında" Qanuna əsasən, alınmış vəsaitlər Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməlidir. "Toplum TV" bu qanunu pozub. Qrantları qanuni deyil, qaçaqmalçılıq yolu ilə alaraq realizə edib.

"Toplum TV" və "Abzas Media" nümunəsi göstərir ki, qanunsuz, qaçaqmalçılıq yolu ilə əldə edilən qrantlar təkcə media azadlığını deyil, milli təhlükəsizliyi də təhdid edir.

**XQ-nin analitik qrupu**

# Albaniya Prezidentinin Azərbaycana işgüzar səfəri




**Albaniya Respublikasının Prezidenti Bayram Beqay XI Qlobal Bakı Forumunda iştirak etmək üçün martın 13-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda Albaniya Prezidenti Bayram Beqayı Azərbaycanın energetika naziri Pərviz Şahbazov və digər rəsmi şəxslər qarşıladılar.

# Yunanıstanla ölkəmizin əməkdaşlığı genişlənir



**Martın 13-də xarici işlər naziri Ceyhun Bayramov Yunanıstanın ölkəmizdə səfərdə olan xarici işlər nazirinin müavini Aleksandra Papadopulunu qəbul edib.**

Görüşdə tərəflər Azərbaycanla Yunanıstan arasında ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq əlaqələrini, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesi və regional məsələləri müzakirə ediblər. İki ölkə rəhbərləri arasında artan təmasların, XİN-lər arasında keçirilmiş siyasi məsləhətləşmələrin münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıblar. Tərəflər siyasi, iqtisadi, ticarət, energetika, kənd təsərrüfatı, turizm, humanitar və digər sahələrdə münasibətləri inkişaf etdirməyin və xalqlarımızın mənafelərinə uyğun əməkdaşlığı genişləndirməyin vacibliyini vurğulayıblar.

Ceyhun Bayramov ötən ilin dekabr ayında həmkarı, Yunanıstanın xarici işlər naziri ilə keçirilmiş görüşü məmnunluqla xatırlayıb, siyasi təmaslarla yanaşı, Azərbaycan Hökuməti ilə Yunanıstan Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın işinin intensivləşməsinin zəruriliyini qeyd edib.

Tərəflər, həmçinin iki ölkə arasında energetika sahəsində əməkdaşlığın əhəmiyyətini təsdiqləyərək, Cənub Qaz Dəhlizi, Trans-Adriatik boru kəməri, eləcə də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun müstəsna əhəmiyyətini diqqətə çatdırıblar. Bu xüsusda, iki ölkə arasında enerji sahəsində uğurlu əməkdaşlığın regionun inkişafına və sabitliyinə töhfə verəcəyi, qarşılıqlı maraq doğuran digər sahələri də əhatə edəcəyinə əminlik ifadə olunub.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə yaranmış yeni reallıqlar, antiterror tədbirlərini şərtləndirən amillər, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi, habelə sülh müqaviləsi gündəliyi, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri istiqamətində atılan addımlar barədə ətraflı məlumatlandırıb.

**XQ**

# Separatizmə dəstək hesabatı

**(əvvəli 1-ci səhifədə)**

Hesabat müəlliflərinin qeyd etdikləri "ikitərəfli sülh müqaviləsinin, habelə atəşkəsi təmin edəcək mexanizmin olmaması, silahlı qüvvələrin dislokasiyasının yaxınlığı və Azərbaycanın Ermənistanla danışıqlarda öz məqsədlərinə nail olmaq üçün hərbi təzyiqdən istifadə etməyə hazır olması" fikri də çox əsassız ittihamdır.

ABŞ rəsmilərinin tarixin arxivinə gömülmüş separatçı xunta rejimini "Dağlıq Qarabağın hakimiyyəti", Azərbaycan ərazisində ilişib qalan Ermənistan ordusunu və ona qoşulmuş separatçı dəstələri "özünümüdafiə qüvvələri" adlandırması isə təəccüb doğurur. Beləliklə, ABŞ hökuməti Azərbaycanın ərazi bütövlüyünü və Qarabağ iqtisadi rayonu üzərində suverenliyini mübahisələndirmiş olur.

Hesabatda qeyd olunan hipotetik müharibənin ikinci səbəbinə – "Azərbaycanın onun eksklavı ilə birləşdirən quru dəhlizə çıxış tələb etməsi silahlı qarşıdurma riskini artıracaq" fikri isə daha bir yanlışdır. Məsələ ondadır ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Naxçıvana yol açmaq üçün üzərinə öhdəlik götürüb. Bununla belə, Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, Bakı nəinki Ermənistana hücum etmək niyyətində deyil, ümumiyyətlə, İrəvanın dəhliz verməkdən imtinası halında alternativ yollardan istifadə edəcək. İranla razılaşma və cənub qonşumuzun ərazisindən Naxçıvana gedən yolun tikintisinə başlanılması bunu nümayiş etdirir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, hesabatda əksini tapan bütün məqamlar yanlışdır, qərəzlidir və ziddiyyətlidir. Bunu Ermənistanı müharibəyə təhrik etmək üçün hazırlanmış hesabat adlandırmaq daha doğru olardı. Bir daha aydın olur ki, Qərbdəki bəzi dairələrin siyasi taktikaları fərqli olsa da, strateji məqsədləri eynidir. Onlar İrəvanı yeni müharibəyə sürükləmək istəyirlər.

**Hərbi-siyasi şərhçi Rizvan Hüseynov "XQ"yə açıqlamasında bildirdi ki,** ABŞ Kəşfiyyat İcması Vaşinqtonun və onun müttəfiqlərinin maraqlarını əks etdirən hesabatlar hazırlayır. Burada məqsəd müttəfiqləri səfərbər etməkdir: "Bu təşkilatın əvvəlki hesabatlarında qeyd olunurdu ki, Ukrayna bu gün-sabah qalib gələcək. Hesabat Rusiya–Ukrayna müharibəsi ilə bağlı reallıqları əks etdirmir. Yəni, Rusiyanın və Ukraynanın real potensialının nədən ibarət olduğu qeyd olunmur. Kəşfiyyat icması yalnız ABŞ-ın marağından çıxış edir. Daha doğrusu, ona verilən sifarişlər əsasında hesabatlar hazırlayır".






Müsahibimiz qeyd etdi ki, bizim regionumuzla bağlı hesabatın arxasında dayanan qüvvələr Azərbaycanın yaratdığı reallıqları nə anlamaq, nə də qəbul etmək istəyirlər: "Bunlar həmin qüvvələrdir ki, 44 günlük Vətən müharibəsindən sonra Qarabağ separatçılarını Azərbaycana müqavimət göstərməyə sövq edirdilər. Onlar bu əməllərini 2023-cü ilin sentyabrınadək davam etdirdilər. Ancaq ölkəmiz həmin tarixdə bütün məsələləri həll etdi və separatizmin kökünü kəsdi.

Kənar qüvvələrin əllərində maşa olan separatçılar həbs olunaraq, Bakıya gətirildilər. Bu, kənar qüvvələrə ən böyük zərbə oldu. Ona görə də yeni metod tapıblar. Əllərindən gələni edirlər ki, Azərbaycan və Ermənistan arasında yeni münaqişə ocağı alovlansın. Onlar hesab edirlər ki, bunun üçün vacib faktor Rusiyanın bölgədəki dayaqlarının zəifləməsidir. Düzdür, Rusiyanın bölgədə dayaqları zəifləyib. Amma Rusiyanı daha da sıxışdırmaq üçün Ermənistanı növbəti, ciddi addımlar atmağa sövq edirlər. Çalışırlar ki, İrəvan Moskvaya qarşı qarşıdurma ritorikasını gücləndirsin. Qərbdəki dairələr özlərini Paşinyan hökumətinin himayədarı kimi aparsalar da, əslində, Ermənistanın Rusiyanın zərbələri altına itələyirlər. Rusiya Ukrayna cəbhəsində kollektiv Qərbə qarşı döyüşdüyü üçün ipə-sapa yatmayan Ermənistana birbaşa zərbələr endirmək imkanı hələ ki, məhdudur. Buna görə də onlar bu rolda Azərbaycanı görürlər. Yəni, fikirləşirlər ki, Ermənistanı, necə deyərlər, yemə çevirəcəklər. Necə ki, həmin siyasi dairələr bundan öncə Qarabağ ermənilərini "yem" etmişdilər. Burada söhbət ABŞ, Fransa kimi ölkələrdə olan bəzi siyasi dairələrdən gedir. Onlar qəsdən, bilərəkdən yalançı hesabatlar yaymaqla, çağırışlar etməklə, ABŞ-dan, Fransadan olan müxtəlif siyasətçilərin bölgəmizə səfərləri ilə Qarabağ ermənilərini aldatdılar, separatçıları yalandan ruhlandırdılar və son nəticədə, necə deyərlər, xərclədilər".

R.Hüseynov qeyd etdi ki, indi də həmin aqibət Ermənistan üçün hazırlanıb. Burada məqsəd regionda yaranmış geosiyasi reallıqları dəyişmək və yeni reallıqlar yaratmaqdır: "Hazırkı reallıqlar onların maraqlarına uyğun deyil. Çünki hazırkı reallıqlar 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan tərəfindən yaradılıb. Bu məsələdə bizə Türkiyə siyasi dəstək verib. 2023-cü ilin sentyabrındakı bir günlük antiterror tədbirləri isə yeni geosiyasi reallıqları daha da möhkəmləndirdi. Xarici qüvvələr bunu qəbul edə bilmirlər. Onlar reallığı dəyişmək istəyirlər və qeyd etdiyimiz kimi, bunun üçün Ermənistanı qurban verməyə hazırdırlar. İstəyirlər ki, regionumuz yeni münaqişə ocağına çevrilsin. Əgər yeni münaqişə baş versə, onların müdaxiləsi daha rahat olacaq. Yəni, həmin qüvvələr yeni geosiyasi reallığın yaranmasına iştirak etmək istəyirlər. Belə hesabatların da məqsədi Ermənistanı ruhlandırmaqdır. İrəvana deyirlər ki, "düz yoldasan, demokratik yolla gedirsən, Azərbaycan hücum edəcək, biz də sənə dəstək verəcəyik, onun qarşısını alacağıq". Eyni zamanda, Ermənistana deyirlər ki, demokratik ölkə kimi yaxşı bir missiya həyata keçirirsən".

Müsahibimiz əlavə etdi ki, Qərbdəki müəyyən dairələr həmin yalanları vaxtilə gürcü xalqına söylədilər: "Gürcü xalqı 2008-ci ildə Rusiyanın müdaxiləsi zamanı bunun acı nəticələrini gördü. Həmin aqibəti 2013-cü ildə "Maydan hərəkatı" ilə Ukrayna xalqının başına gətirdilər. İndi görürük ki, Ukraynanı Rusiya ilə təkbətək qoyublar. Təxminən eyni ssenarini Ermənistan üçün də hazırlayıblar".

**Səxavət HƏMİD**
**XQ**

# Lui Bono Bakıya gələcək

**ABŞ-nin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono Azərbaycana səfər edəcək. "XQ" xəbər verir ki, səfər bu həftə baş tutacaq.**



Lui Bono Cənubi Qafqaz regionuna səfəri zamanı Azərbaycan rəsmiləri ilə görüşərək Bakı və İrəvan arasında dayanıqlı sülh sazişinin əldə edilməsi səylərini müzakirə edəcək.

Qeyd edək ki, L.Bono dünən İrəvanda Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla görüşüb. Görüş zamanı Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması məsələləri müzakirə olunub.

# Azərbaycan–Qazaxıstan Ekspert Şurasının III iclası

**Martın 13-də Azərbaycan-Qazaxıstan Ekspert Şurasının üçüncü iclası keçirilib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan və Qazaxıstan arasında ikitərəfli siyasi dialoqun yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.**



Hər iki ölkənin energetika, nəqliyyat sahələrində strateji layihələr üzərində çalışdığını qeyd edən F.Şəfiyev deyib: "İkitərəfli ticarət dövriyyəsinin, eləcə də Orta Dəhliz vasitəsilə yükdaşımaların həcmi artır. Son iki il ərzində Orta Dəhlizlə bağlı gömrük sahəsində, eləcə də bürokratik sahədə mövcud maneələrin aradan qaldırılması istiqamətində əhəmiyyətli irəliləyişin şahidi oluruq".

Türk Dövlətləri Təşkilatının qlobal çəkisinin artdığını deyən Fərid Şəfiyev Qazaxıstanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb. İntellektual çevrələr arasında ortaq fəaliyyətlərin zəruriliyini önə çəkən Fərid Şəfiyev BMTM-in bu istiqamətdə təşəbbüslərə açıq olduğunu deyib.

Qazaxıstan Strateji Araşdırmalar İnstitutunun direktoru Yerkin Tukumov Ekspert Şurasının iclaslarını iki ölkənin liderləri tərəfindən başladılan prosesin məntiqi davamı kimi səciyyələndirib. Onun sözlərinə görə, yeni regional və subregional reallıqların yaratdığı çağırışlara uyğun olaraq, beyin mərkəzləri hazırlıqlı olmalıdır.

Sonra Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel, Qazaxıstan Parlamentinin deputatı Aydos Sarım, Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kaliyev, Cənubi Qafqaz Politoloqlar Klubunun rəhbəri İlqar Vəlizadə, Beynəlxalq Türk Akademiyasının baş eksperti Timur Kozırev və başqalarının çıxışları dinlənilib.

# MƏHKUM

## Çanaq gec-tez Ermənistan baş nazirinin başında çatlayacaq

**Böyük güclərin Cənubi Qafqaz uğrunda mübarizəsinin daha amansız xarakter aldığı göz qabağındadır. İstər Qərb, istərsə də ABŞ bu regionda cərəyan edən geosiyasi proseslərə tam açıq müstəvidə müdaxiləyə, tərəflərdən birinə öz şərtlərini diktə etməyə başlayıblar. Bəli, kollektiv Qərbin Cənubi Qafqazı Rusiya ilə növbəti qarşıdurma platsdarmına çevirmək məqsədini güddüyü artıq heç kəsdə şübhə doğurmur. Məhz bu səbəbdən bölgədə əsas proseslər Qərbin vassallığını qəbul etmiş Ermənistan ətrafında cərəyan edir.**

Cənubi Qafqaz coğrafiyasında vahid platformadan çıxış edən ABŞ–Qərb tandeminin Ermənistanı Moskvanın patronajlıq etdiyi bütün hərbi-siyasi qurumlardan uzaqlaşdırmağa çalışdığı gözlə görünən qədər aşkardır. Tandemin tələblərinin sırasına Rusiya ilə strateji müttəfiqlik müqaviləsinin pozulması, eləcə də onun hərbi bazasının Ermənistan ərazisindən çıxarılması daxildir. Amma bu planı reallaşdırmaq o qədər də asan deyil. Rusiya Qərbə üz tutacağı təqdirdə rəsmi İrəvanı "Ukrayna ssenarisi" ilə hədələyir. Bu isə o deməkdir ki, Kreml Paşinyanın anti-Rusiya siyasətinə cavab olaraq Ermənistana qarşı hərbi rıçaqlardan istifadə etməyə hazırdır.

* * *

Ermənistan baş naziri Nikol Paşinyan martın 12-də keçirdiyi mətbuat konfransında kifayət qədər maraqlı açıqlamalar verdi. Onlardan biri onu hakimiyyətdən devirməyə dəfələrlə cəhd etmiş xarici qüvvələr barədə idi.

"Stepanakertdə (Xankəndidə – red.) yanacaq anbarının partlaması insanların "Dağlıq Qarabağı" tez bir zamanda tərk etməsi məntiqi ilə bağlı idi". Paşinyan bu sözlərinin ardınca həmin hadisənin kimlər tərəfindən və nə məqsədlə törədildiyini açıqlayıb: "İnsanlar vəziyyətə nəzarəti itirmişdilər. Onlara deyiblər ki, gedin anqarlardan benzin alın. Amma sonra gördüm ki, bu hadisədə başqa məsələlərlə yanaşı, xarici qüvvələrin əli var. Bölgədə etnik təmizləməni (?) təşkil edən qüvvəni sıxışdıran, onlara dəstək verən xarici qüvvələr işləyib. Məqsədləri Dağlıq Qarabağ (?) ermənilərinin bölgəni tez bir zamanda tərk etmələrinə nail olmaq idi. Sonra o qüvvələr Ermənistanda hakimiyyət dəyişikliyinin başlandığını elan etdilər. Amma gördülər ki, Ermənistan daxilində resursları inqilabı həyata keçirmək üçün yetərli deyil. Onlara, ən azı, Qarabağdan əlavə qüvvə gətirmək lazım idi ki, hakimiyyət dəyişikliyi mümkün olsun".

Bu açıqlaması ilə Paşinyan həm Qarabağda ermənilərin heç bir "etnik təmizləmə"yə məruz qalmadığını, həm də onlardan hakimiyyəti devirməkdə siyasi alət kimi istifadə olunduğunu etiraf etmiş oldu. Bu məqamda zəruri xatırlatmaya ehtiyac duyulur. Hayların özlərinin etiraf etdikləri kimi, Ermənistan bir dövlət kimi çat verir, ölkə sonu görünməyən daxili qarşıdurmadan əziyyət çəkir. Fəqət, bugündək nə daşnak–revanşistlərin, nə də 20 il hakimiyyətdə olmuş Qarabağ klanının Paşinyanın istefasına nail olmağa real şansı var. Yaqin bu faktı oxucularımız da xatırlayır: keçən il sentyabrın 25-də daxildəki müxalif qüvvələr, İrəvana qaçmış Qarabağ erməniləri, guya, 100–150 minlik etiraz mitinqinə hazırlaşırdı. Fəqət həmin gün Teatr meydanına maksimum 5-6 min adam çıxdı. O da yadımızdadır ki, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın gəlini müğənni Siruşonun isterik çağırışları, oliqarx Ruben Vardanyanın irəvanlıları şirnikləndirmə cəhdləri, "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Qaqik Sarukyanın hazırladığı "revanş planı" heç bir nəticə vermədi. "Birləşmiş müxalifət"in dəbdən düşmüş və dağılmış "miatsum" mifi üzərində "hakimiyyəti devirmək" cəhdləri tam fiaskoya uğradı. Paşinyan "Qarabağdan əlavə qüvvə" deyəndə məhz ona qarşı istifadə ediləcək erməniləri nəzərdə tuturdu.



* * *

Fakt ondan ibarətdir ki, Ermənistanda baş nazir Nikol Paşinyan əleyhinə etirazlar Azərbaycan Ordusunun 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirindən sonra kütləvi hal aldı. Doğrudur, ona qədər də mövcud iqtidara qarşı olan müxtəlif siyasi qüvvələr piketlər, nümayişlər keçirir, istefa tələbləri səslənirdi. Etirazçılara qarşı polisin qəddar davranışı da unudulmayıb. Hətta, nümayişləri dağıtmaq üçün odlu silahdan istifadə olunsa belə, qərbli "demokratlar" səslərini çıxarmadılar. Özlərini insan haqlarının müdafiəçiləri sayan beynəlxalq institutlar da, nədənsə, susdular. Bu da təsadüfi deyildi. Qərbin fəaliyyətsizliyi, susqunluğu baş nazir Paşinyanın hakimiyyətini qorumağa xidmət edirdi. Yəni, ermənipərəst Qərb bu gün də əlində olan bütün imkan və vasitələri dövriyyəyə buraxmaqla Paşinyan hakimiyyətini himayə edir. Çünki onlar yaxşı başa düşürlər ki, Ermənistanda hakimiyyət dəyişikliyi onlar üçün hər şeyin itirilməsi demək ola bilər. Hakimiyyətə gətiriləcək yeni qüvvənin Qərbi təmsil etməyəcəyi, Rusiyaya meyilli olacağı isə birmənalıdır.

Qayıdaq Paşinyanın iki gün əvvəl mətbuat konfransında verdiyi "maraqlı" açıqlamalarına. Onun belə açıqlamalarından biri 1996-cı ildən Qarabağ məsələsinin artıq mövcud olmadığı və 2021-ci il parlament seçkilərinə mane olmağa çalışan kənar qüvvə barədə idi. "Bəli, 1996-cı ildən Qarabağ məsələsi mövcud deyil. 2023-cü ilin sentyabrında eyni qüvvələr Ermənistan məsələsini də həll etmək, hər şeyi bağlamaq istəyirdilər. Bəs, necə oldu ki, Azərbaycan qoşunları 2021-ci ilin mayında Ermənistanın suveren ərazisini işğal etdi?. Axı, parlament buraxılmışdı və baş nazir yeni seçkilər öncəsi istefa vermişdi. Niyə həmin hadisələr 2021-ci il mayın 12-də, dediyim qərarlar qüvvəyə minəndə baş verdi? Niyə mayın 5-də, yaxud aprelin 25-də olmadı?".

Paşinyan üç il əvvəlki seçkilər məsələsinə toxunmaqla onu devirməyə çalışan kənar gücün ünvanını da nişan vermiş oldu. Həmin anda onun şəhadət barmağını şimala tuşlamasına ehtiyac qalmadı.

* * *

"Onlar bizdən niyə hərbi əməliyyatlara başlamadığımızı soruşdular. Düzünü desəm, nə cavab verəcəyimi bilmirdim. Amma indi deyə bilərəm ki, bütün hesablamalar ondan ibarət idi ki, əgər müharibə başlasaydı, Ermənistan seçki keçirə bilməyəcəkdi. Yəni, 2021-ci ilin yayında "de-yure" və "de-fakto" Ermənistan Respublikasının ləğvi baş verəcəkdi". Bir qədər pessimist səslənsə də, Ermənistan baş naziri ilk dəfə idi ki, reallığı olduğu kimi dilə gətirirdi. Deyəsən, daha devrilməkdən qorxmur. Çünki, ABŞ və Qərbin onu Rusiya əleyhinə demarşlara cəsarətləndirmək istiqamətində müəyyən manevrlər etdiyini görür. Bu günlərdə Böyük Britaniya da Rusiya ilə mümkün qarşıdurmada İrəvana hər cür dəstək verməyə hazır olduğunu bəyan edib. Bütün bunlar isə Qərbin Ermənistanla bağlı indiki siyasətinin birmənalı şəkildə Rusiyanı hədəfə aldığının göstəricisidir. Paşinyan isə bu yeni taktikalı köhnə oyunda yenə Qərbin maşası olmağa məhkumdur.

Məsələ həm də ondadır ki, ABŞ və Qərbin Ermənistan dəstəyinin arxasında rəsmi İrəvana verilmiş təlimatların icrasına nail olmanın mövcudluğu artıq açıq mətnlə etiraf edilir. Kənardan belə görünür ki, Nikol Paşinyan Rusiyaya qarşı kəskin siyasi ritorikalı avantürist və riyakar siyasət aparır. Amma o, Qərbin israrlı tələblərinə baxmayaraq, Ermənistanın, KTMT də daxil olmaqla, Moskvanın patronajlığı altında olan qurumları tərk etməsinə yönəlik hüquqi addımları mümkün qədər təxirə salmağa çalışır. Yəqin bununla Kremlin sərt reaksiyası ilə vaxtından əvvəl üzləşmək təhlükəsindən yayına biləcəyinə ümid bəsləyir.

Ermənistanda hələ də Paşinyanla yoluna davam etmək istəyən qüvvələr var. Həmin qüvvələr əksəriyyət təşkil edir. Nikol onlara və seçicilərinə bol vədlər verib, indi də onları yetinə yetirməkdən ötrü yollar və imkanlar arayır. Xarici ekspertlərin bəziləri bu qənaəti bölüşür ki, hazırda Hayastanda Paşinyanı əvəz edəcək lider yoxdur və Ermənistanın daxili siyasi palitrasında iqtidara diş göstərə biləcək güclü müxalif qrup da gözə dəymir.

* * *

Hər şeydən göründüyü kimi, bugünədək daxildən və xaricdən ən müxtəlif siyasi qüvvələr Paşinyanı devirməyə, ən azı, onun ictimai nüfuzunu zəiflətməyə nə qədər cəhd etsələr də, ciddi uğura nail olmağı bacarmayıblar. Bunun səbəblərindən biri də qonşuları ilə təcriddən bezmiş erməni xalqının daha daşnakların, separatçı–revanşist kəsimin çağırışlarına hay verməməsidir.

Bəli, Paşinyanın vəziyyəti heç də qibtəolunası deyil. İndi onun durumunu mütləq çatlayacaq çanağın altında zorən oturdulmuş, son aqibətini gözləməyə məhkum edilmiş adamın düşdüyü tələyə bənzətmək olar. Gözlənilən partlayışdan sonra ətrafa yayılacaq qəlpələrdən yayınmaq isə elə də asan olmur...

**P.S.** Dünən erməni mediası maraqlı bir məlumat yaydı. Qarabağdakı keçmiş separatçıların qondarma "parlamenti"nin sabiq üzvlərinə Ermənistanı tərk etmək qadağan olunub. Qarabağ separatçılarının "ombudsmanı" olmuş Geqam Stepanyan da "Zvartnots" hava limanında oxşar vəziyyətlə üzləşib. Səbəb, guya, konkret cinayət işi ilə bağlıdır. İstintaq Komitəsi "Artsax"da baş verən son hadisələrlə, xüsusən də Araik Arutyunyanı "prezident" postundan istefa verməyə vadar edən səbəblərlə maraqlanırmış...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**

Ermənistan baş naziri Nikol Paşinyan özünə qarşı qiyam və çevriliş təhlükəsindən çox qorxur. O, hesab edir ki, bu işdə xarici xüsusi xidmət orqanlarının, əsasən də Rusiya hərbi agentutasının əli ola bilər. Düşünür ki, onlar yerli daşnak-radikalların, Qarabağ separatçılarının vasitəsilə onu devirə bilərlər. Məhz bu qorxunun səbəbindən Paşinyan Qarabağı tərk edən ermənilərin İrəvanda deyil, ətraf qəsəbələrdə yerləşdirilməsi barədə qərar verdi. Eyni zamanda, daxili radikalları da nəzarət altında saxlamağa çalışır ki, bu kəsim qiyam və ya çevrilişə cəhd edə bilməsin. Amma baş nazir üçün ən böyük təhlükə ordunun içindən ola bilər. Məhz bu ehtimalı nəzərə alaraq, o, bir müddət öncə baş qərargah rəisini dəyişdi.

İntəhası, Ermənistan ordusunun içində müxtəlif ölkələrin hərbi agenturaları ilə bağlılığı olan yüksək çinli hərbçilər var. Yəni, hərbi çevrilişə cəhd variantında həmin adamların Paşinyana qarşı istifadə edilə bilər. Böyük ehtimalla bu məsələlərdə baş nazir Fransa və ABŞ-nin məxfi qurumları ilə əməkdaşlıq edir. Mərkəzi Kəşfiyyat İdarəsi gözlənilən müəyyən təhlükələr barədə onu məlumatlandırır. Bəlkə elə buna görə açıqlamalarının birində Paşinyan açıq şəkildə bildirmişdi ki, Rusiya onu devirməyə çalışır. Yəqin bunu deyərkən əlində hansısa kəşfiyyat məlumatı olub. Belə bir təhlükəni hiss etdiyindən cangüdənlərinin sayını da artırıb.

Digər tərəfdən, əgər Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxarsa, Rusiyada müəyyən dairələr Paşinyanın əleyhinə "X" planının düyməsini basa bilərlər. Bu zaman, hətta, Gümrüdəki hərbi bazadan yararlanmaq ehtimalı da var. Görünən odur ki, Ermənistandakı hadisələr çox təhlükəli istiqamət alıb. Əslində, Paşinyan düşdüyü vəziyyətdən çıxış yolları axtarırsa, Azərbaycan və Türkiyə ilə müəyyən məsələləri həll etməklə özünü və ölkəsini təhlükədən sığortalaya bilər. Amma bunun üçün ilk növbədə anklav kəndlər və Zəngəzur dəhlizi məsələsində Azərbaycanla razılığa gəlməli və çərçivə sazişini imzalamalıdır. Ondan sonra Türkiyə də Ermənistanla əlaqələri bərpa edəcək. Məhz "Qafqaz evi" layihəsində əməkdaşlıq İrəvana təhlükəsizlik təminatını verəcək.

# "Zvartnots" – davakar erməni avantürizminin növbəti ünvanı

**(əvvəli 1-ci səhifədə)**

Hiss olunur ki, Kreml Ermənistanın qərarından məmnun deyil. Peskov konkret söz demir. Axı məsələ adi sayıla bilməz. Çünki söhbət Rusiyanın Ermənistandakı vacib postunu itirməsindən gedir. Elə isə Moskva tərəfindən hansı addımlar atıla bilər? Nəzərə alaq ki, "Zvartnots"da rus sərhədçilərinin mövcudluğu ümumən Ermənistandakı Rusiya hərbi varlığının ayrılmaz tərkib hissəsidir. Moskva və İrəvan arasındakı 1993-cü il razılaşmasına əsasən, Rusiya Ermənistanın quru və hava sərhədlərinə nəzarəti həyata keçirir. Yəni, Ermənistanın Türkiyə və İranla sərhədlərinin qorunması Rusiya üçün həm də strateji əhəmiyyət daşıyan məsələdir. Yeri gəlmişkən, bildirək ki, Kreml vaxtilə Azərbaycanın da İranla sərhədini qorumaq üçün cənfəşanlıq göstərmiş, lakin istəyinə çatmağı bacarmamışdı...

Bəli, tam qətiyyətlə demək olar ki, Rusiya üçün "Zvartnots"u itirmək Ermənistandakı hərbi mövcudluğu əldən verməyin ilk siqnalıdır. Belə olan halda, onun necə davranacağı maraqlıdır. Daha doğrusu, Rusiyanın "Zvartnots"-dan çıxmamaq üçün hansı arqumente söykənəcəyi suallar doğurur. Ümumən, ölkə nəyisə əsas gətirib Ermənistan hakimiyyətinin qərarından yan keçə bilərmi? Əslində, suallar "Zvartnots" məsələsi"nin tamam fərqli məqamlarını da üzə çıxarır. Bu barədə söz açacağıq. Ancaq hələlik...

1993-cü ildəki Rusiya-Ermənistan sərhəd təhlükəsizliyinin qorunmasına dair müqaviləni xatırlayarkən, əslində, Kremlin bir arqumentini vurğulamış olduq. Yəni, Moskvanın konkret sazişə görə, "Zvartnots"dan çıxmağın yolverilməzliyini hüquqi cəhətdən əsaslandırması mümkündür. Ancaq o zaman hadisələrin axarına hazır olmalıdır. Çünki Ermənistanın çox rahatlıqla rus qoşunlarının ölkənin bütün hüdudlarından çəkilməsini istəməsi mümkündür. Buna qarşılıq Kremlin edəcəyi heç nə yoxdur.

Bəs, Rusiya "Zvartnots"dan çıxıb Gümrüdəki və İranla sərhəddəki hərbi mövcudluqla kifayətlənə bilərmi? Çox güman ki, ölkənin seçəcəyi yol elə budur. Kreml ziddiyyətləri dərinləşdirmək istəməz.

Əlbəttə, "Zvartnots" presedent ola bilər. Yəni, N.Paşinyan eyni qaydada deyə bilər ki, erməni hərbçiləri təcrübə toplayıblar, Türkiyə və İranla sərhədləri də özləri qoruya bilərlər. Prosesin buna doğru getdiyi gün kimi aydındır.

***

İndi isə gələk "Zvartnots" məsələsi"nin haqqında söz açacağımızı bildirdiyimiz tam fərqli məqamlarına. Əvvəldə Azərbaycan Prezidentinin fikirlərini təsadüfən diqqətə çatdırmadıq. Dövlətimizin başçısı son dərəcə haqlı məqama toxunmuşdu. Prezident İlham Əliyev yanvarın 10-dakı müsahibəsində 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın Naxçıvana yol məsələsindəki 9-cu bəndinə əməl etməyə çağırış səsləndirmiş, Ermənistana manipulyasiyalarla məşğul olmamağı məsləhət görmüşdü: "Onların Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən təklif etdiyi marşrut tamamilə yararsızdır və ilboyu o marşrutdan istifadə etmək mümkün olmayacaq. Çünki orada hava şəraiti də və relyef də çox sərtdir. Ən düzgün variant Mehri ərazisindəndir. Onsuz da sovet vaxtında oradan dəmir yolu keçirdi və avtomobil yolu da tikilirdi. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. Azərbaycandan Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks– təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, neinki xeyir".

Bəli, üçtərəfli bəyanatın 9-cu bəndinə məhəl qoymayan rəsmi İrəvan məhz Meğri yolunda Rusiya sərhədçilərinin təhlükəsizlik təminatına qarşı çıxır və durumu özünün ərazi bütövlüyü və təhlükəsizliyi baxımından yolverilməz sayır.



Məhz buna görə dövlətimizin başçısı əvvəldə diqqətə çatdırdığımız fikirləri səsləndirmiş, və faktiki olaraq sual vermişdi ki, Ermənistanın, demək olar, bütün sərhədlərində, o cümlədən, hava limanında rus hərbçiləri keşik çəkirlərsə, nəyə görə eyni məntiq Meğri yoluna tətbiq edilməməlidir?

Əlbəttə, sual ritorikdir. Məlumdur ki, Ermənistan Azərbaycana qarşı çıxmaq yolu tutur. O da məlumdur ki, hazırda İrəvanın anti-Azərbaycan köklənişi anti-Rusiya ritorikası ilə çulğaşıb. Elə "Zvartnots" məsələsində də təkcə Moskvaya deyil, həm də Bakıya qarşı çıxmaq motivi var. Burada başlıca məqsəd Rusiyanın Cənubi Qafqazdakı mövcudiyyət çəmbərini daraltmaqdır. Paralel olaraq Qərbi bölgəyə tam şəkildə gətirmək. Yəni, Paşinyan administrasiyası çalışır ki, qlobal miqyasdakı anti-Rusiya oyunlarında yer alaraq, erməni avantürizmini yaşatsın.

Qeyd edək ki, erməni avantürizmini vaxtilə Rusiya körükləyirdisə, indi eyni missiyanı Qərb reallaşdırmaqdadır. Daha doğrusu, Qərb Rusiyaya qarşı mübarizədə "erməni kartı"ndan bəhrələnməyə çalışır. Anti-Rusiya ritorikası ona görə anti-Azərbaycan baxışı ilə birləşib ki, Paşinyan iqtidarı hazırkı Qərbə xidmət aktivliyini 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri zamanı itirdiyi mövqelərini qaytarmaq, revanşizm üçün vasitə kimi görür. İrəvanda belə düşünürlər ki, əgər Ermənistan Cənubi Qafqazdakı rus varlığını aradan qaldırmağa kömək göstərsə, mükafat qismində Azərbaycandan ərazi qopara biləcək. Əslində, Qərbin bəzi dairələri də belə bir "planın" gerçəkləşməsini istəyirlər. Ancaq Rusiyanı regiondan çıxartmaq asan məsələ deyil. Elə Azərbaycana qarşı çıxmaq da. Ona görə Ermənistan silahlandırılır. "Zvartnots" məsələsində üzərində dayanacağımız sonuncu məqam da elə budur.

***

Maraqlıdır ki, "Zvartnots" məsələsinin gündəmə gəlməsi Hindistan–Ermənistan hava məkanının açılmasına dair xəbərlərlə eyni vaxta təsadüf edir. Ermənistana silah daşınmasının yeganə yolu məhz budur. Aydındır ki, Türkiyə sərhədi bu məqsəd naminə əslə istifadə edilə bilməz. Gürcüstan da öz ərazilərindən genişmiqyaslı silah-sursat daşımaları üçün istifadəyə imkan verməyəcək. 44 günlük müharibə dövründə rəsmi Tbilisi özünün hava məkanını da bağlamışdı. İrana gəldikdə isə doğrudur, rəsmi Tehranın ölkənin hava məkanını sözügedən Hindistan–Ermənistan marşrutu üçün açdığına dair fikirlər dolaşmaqdadır. Ancaq İslam respublikasının quru yolla bunu etməsi mümkünsüz görünür.

Deməli, İrəvanın qarşısında dayanan başlıca vəzifə hava sərhədinə tam nəzarəti gerçəkləşdirməkdir. Axı fransız istehsalı olan Hindistan silahlarının Qərb avantürizminə dəstək məqsədilə İrəvana gətirildiyi bəllidir. Əlbəttə, əvvəllər də "Zvartnots" vasitəsilə silah daşımaları həyata keçirilib və proses rus sərhədçilərinin gözləri qarşısında baş verib. Görünür, rəsmi İrəvan xaricdəki havadarlarından bunun yolverilməzliyi ilə bağlı direktiv alıb. Həm də o görünür ki, hazırda söhbət daha böyük miqyaslı silah daşımalarından getdiyindən, Rusiyanı kənarda qoymaq istəyi yaranıb. Ermənistan hakimiyyəti elə bu səbəbdən hava limanına özü nəzarət etmək barədə qərar çıxarıb.

***

Sonda onu da deyək ki, Paşinyan iqtidarının "Zvartnots" məsələsi"ndə uydurduğu Rusiyaya təşəkkür arqumenti tam absurddur. Necə ola bilər ki, bir sərhəd xidməti normal fəaliyyət göstərməyi öyrənmək üçün otuz ildən artıq vaxt sərf etsin? Digər tərəfdən, vaxtilə Rusiya sərhədçiləri Ermənistanın sərhədlərini ona görə qorumağa başlamamışdılar ki, ermənilər özləri bunu bacarmırlar. Ortada da paradoks. "Tarixi erməni torpağı" kimi qələmə verilən Qarabağı və ətrafdakı rayonları "azad edən" (işğal edən - red.) erməni hərbçiləri öz sərhədlərini qoruya bilmirdilər?

Belə nəticəyə gəlirik ki, erməni sərhədçilərin püxtələşməsi məntiqi cəfəngiyyatdır. Bir daha vurğulayaq ki, ortada anti-Rusiya və anti-Azərbaycan motivləri var. Və deməli, "Zvartnots" məsələsi növbəti avantüradan və bunun üçün platforma qazanmaq məqsədinin reallaşdırılmasından başqa bir şey deyil.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Orta Dəhliz – Şərqdən Qərbə mötəbər körpü



## Ötən il bu marşrutla ölkəmizin ərazisindən 6,7 milyon tona yaxın tranzit yük daşınıb

**Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyev və Kasım-Jomart Tokayev tərəfindən martın 11-də Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasiminin videobağlantı ilə izlənilməsi zamanı məlumat verildi ki, konteyner qatarı Çinin adı çəkilən şəhərində istismara verilən Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınıb. 61 konteynerdən ibarət konteyner qatarı uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı–Aktau–Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb.**

Yeri gəlmişkən, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin respublikamıza dövlət səfəri zamanı ölkə başçısı İlham Əliyev mətbuata bəyanatında konteyner qatarının Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət etməsini mühüm hadisə kimi dəyərləndirib və bununla TransXəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrildiyini, bu marşrutun regional əməkdaşlığın səviyyəsinin müəyyənləşdirilməsi rəmzlərindən biri olduğunu vurğulayıb: “Çünki qonşularla yaxşı münasibət qurmadan tranzit ölkə olmaq mümkün deyil. Belə halda həm Qazaxıstan, həm də Azərbaycan bu istiqamətdə regional əməkdaşlığa, qonşularla münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini nümayiş etdirir”.

Dövlətimizin başçısı fikrini davam etdirərək bildirib ki, Azərbaycanla Qazaxıstanı təkcə Xəzər dənizi ayırır. Amma bu gün o da əngəl deyil, əksinə, Xəzər ölkələrimizlə bərabər, həm də bir çox dövlətlər arasında körpüdür, çünki TransXəzər nəqliyyat dəhlizi hazırda öz potensialını tam şəkildə açır.

Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlayan Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasını şərtləndirib. İlkin razılaşmaya əsasən, bu logistika mərkəzi vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılıb.

Bununla yanaşı, Orta Dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönələn rəqəmsal “DTC” platforması yaradılıb. Həmin infrastruktur Azərbaycan və Qazaxıstan dəmir yolları “Track and Trace” (“Təqib və izləmə”) funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin qurulması və inkişaf etdirilməsi Orta Dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır.

Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyi sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar–fevral aylarında “Qazaxıstan Dəmir Yolları” Səhmdar Cəmiyyəti ilə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 540 min ton təşkil edib.

Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir. Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini izləyən dövlətimizin başçısı bununla bağlı deyib: “Bu gün Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində – konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərirlər. Bizim ikitərəfli əməkdaşlığımız həm TransXəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir”.

Prezident İlham Əliyev daha sonra ölkələrimiz arasında müxtəlif istiqamətlərdə yükdaşınmanın əməkdaşlığımızın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb və Qazaxıstanla Azərbaycanın gələcəkdə beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlarını əminliklə diqqətə çatdırıb.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**İqtisadi şərhçi**



Azərbaycan və Qazaxıstan arasında əməkdaşlıq münasibətlərinin möhkəmlənməsində, qlobal və regional layihələrin reallaşmasında Orta Dəhlizin inkişafı amili önəmli rol oynayır. Bu nəhəng infrastruktur marşrutu Prezident İlham Əliyevin vurğuladığı kimi, Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edir. Belə bir xətlə qısa müddətdə Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlib çatması Transxəzər Şərq–Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) artıq reallığa çevrilməsinin, onun regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir. Çünki qonşularla yaxşı münasibət qurmadan tranzit ölkə olmaq mümkün deyil.

Qazaxıstan Prezidentinin ölkəmizə səfəri çərçivəsində Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişinə həsr olunmuş mərasim əslində, Orta Dəhlizin Avrasiya məkanı üçün indi daha çox cəlbedici olduğunu nümayiş etdirdi. Fərqli coğrafiyalarda mövcud olan dəhlizlərdən bir qisminin təhdid edildiyi hazırki şəraitdə 7 min kilometr uzunluğunda marşrutun cəmi 11 günə qət edilməsi, şübhəsiz ki, həm Asiya, həm də Avropa məkanı üçün iqtisadi cəhətdən olduqca əlverişli və cəlbedicidir. Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi vasitəsilə bu marşrut üzrə ayda 10 konteyner qatarının ölkəmizə çatdırılması nəzərdə tutulur. Beləliklə, Azərbaycan tranzit potensialını reallığa çevirmək imkanını əldə edir, Şərq-Qərb dəhlizində strateji tərəfdaş statusunu daha da möhkəmləndirir.

Qeyd edim ki, Çin–Mərkəzi Asiya–Azərbaycan və Gürcüstandan Qara dənizə və Avropaya uzanan bu dəhliz yükdaşıma xərclərinin aşağı olması ilə yanaşı, həm də təhlükəsizdir. Çindən Avropaya Cənub dəhlizi ilə daşınan yüklər Süveyş kanalından keçməklə 20 min kilometr məsafəni keçməlidir. Lakin konteyner daşıyan qatar Orta Dəhlizlə 12 gün ərzində 7 min kilometr məsafəni qət edəcək ki, bu da nəqliyyat xərclərinin az olması ilə bərabər, təhlükəsizliyin də gerçəkləşdirilməsini şərtləndirəcək. Çin–Mərkəzi Asiya–Azərbaycan və Gürcüstan ərazisindən keçən marşrut ilə yüklər Qara dənizə, buradan isə Türkiyə və Şərqi Avropa ölkələrinə çatdırılacaq.

Orta Dəhlizlə yükdaşımalar artmaqda davam edir və bu artımda Bakı–Tbilisi–Qars dəmir yolu əhəmiyyətli rol oynayır. Dəmir yolu ilə Azərbaycan ərazisindən tranzit yükdaşımalar 2019-cu illə müqayisədə 2023-cü ildə 76 faiz artaraq 3,8 milyon tondan 6,7 milyon tona çatıb. Yaxın gələcəkdə bu rəqəmlərin dəfələrlə artacağı gözlənilir.

Ümumiyyətlə, Orta Dəhliz beynəlxalq xarakter daşıyan tranzit yükdaşımalar üçün çox önəmlidir. Bu marşrutla Çindən Azərbaycana daxil olan tranzit yüklərin təkcə Bakı–Tbilisi–Qars dəmir yolu ilə Qara dəniz limanlarına deyil, eyni zamanda Zəngəzur dəhlizi ilə Türkiyəyə, oradan isə Qərbi Avropa ölkələrinə daşınacağı nəzərdə tutulur.

Yeri gəlmişkən, bu gün Avropa və beynəlxalq maliyyə institutları tərəfindən Orta Dəhliz vasitəsilə dayanıqlı nəqliyyat əlaqəsinin təmini, lazımi infrastrukturun qurulması və texniki dəstəyin göstərilməsi üçün maliyyə vəsaitinin ayrılmasına maraq göstərilir. Artıq bu istiqamətdə mühüm öhdəliklərin qəbul edilməsi diqqətdə saxlanılır. Avropa İnvestisiya Bankının Qazaxıstan, Qırğızıstan və Özbəkistan hökumətləri ilə ayrı-ayrılıqda, ümumilikdə, 1,47 milyard avro dəyərində müqavilələr bağlaması və Avropa Yenidənqurma və İnkişaf Bankının Qazaxıstanla ümumi dəyəri 1,5 milyard avro olan Anlaşma Memorandumu imzalaması da bunun bariz ifadəsidir. Gələcəkdə də Orta Dəhlizi üzrə belə müqavilələrin imzalanacağının davam edəcəyi gözlənilir. Şübhəsiz ki, bu cür əməkdaşlıqlar Avropa və Asiya arasında qlobal logistika bağlantılarının gücləndirilməsinə böyük töhfə verəcək və dəhlizin əhəmiyyətini daha da artıracaq.

---

**Dünən Bakı Su Həftəsi çərçivəsində Beynəxalq Su Təsərrüfat Sərgi və Konfransı (“Baku Water Week”) öz işini davam etdirib. Tədbirdə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxış edərək bildirib ki, uzunmüddətli perspektivdə əsas hədəf suyun insanlar və cəmiyyət tərəfindən dəyərinin doğru anlaşılması və doğru qəbul olunmasını təmin etməkdir. “Söhbət suyun qiymətindən deyil, məhz ona verilən dəyərdən gedir. Bu istiqamətdə, ilk növbədə, qanunvericilik bazasının yaradılmasına ehtiyac var. Bununla yanaşı, institusional dəyişikliklər görülməlidir. Biz regionlarda “bir pəncərə” prinsipinin tətbiq etmək istəyirik. Yəni insanlarımız su dedikdə, bizim quruma müraciət etsinlər. Məqsədimiz nəticə etibarı ilə dayanıqlı və etibarlı su təminatını təmin etməkdir”,– deyə agentlik sədri əlavə edib.**

# Azərbaycan şirin suya dəyər verən ölkədir

## Əhalinin bu həyat iksirinə illik tələbatı 10 milyard kubmetrdir




Qeyd olunub ki, son zamanlar ölkəmizdə su ehtiyatlarından səmərəli istifadə olunması ilə bağlı mühüm layihələr həyata keçirilir. bu məqsədlə ölkə ərazisində 20-yə yaxın kanalın bərpa olunması nəzərdə tutulub ki, hazırda həmin kanalların 2-də işlər artıq başlamaq üzrədir, 6-sının bərpa olunması istiqamətində işlər davam edir, 12-də isə hazırlıq işləri tamamlanmaq ərəfəsindədir. Bununla yanaşı, ölkə ərazisində 13 su anbarının yenidən qurulması nəzərdə tutulur ki, artıq onların 2-sində bərpa işləri başa çatdırılıb.

Agentlik sədri, həmçinin deyib ki, cari ilin ortalarına kimi Laçın rayonunun Zabux kəndində su anbarının tikilib təhvil verilməsi gözlənilir. Paralel olaraq digər anbarların da texniki-iqtisadi əsaslandırılması üzrə işlərin aparıldığını diqqətə çatdıran Z.Mikayılov deyib ki, Həkəri çayı üzərində Zabuxçay su anbarının tikintisinə dair layihə-smeta sənədlərinin hazırlanıb, Türkiyənin “Cengiz İnşaat Sənaye və Ticarət A.Ş.” tərəfindən tikinti-quraşdırma işləri aparılır. Onun sözlərinə görə, bu işlərin həyata keçirilməsi üçün şirkətlə 128,2 milyon manatlıq müqavilə imzalanıb.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov isə çıxışında qeyd edib ki, hazırda dünyada su ehtiyatlarının təxminən 70 faizi aqrar sahədə istifadə olunur. Azərbaycanın da bu mənada istisna olmadığını vurğulayan nazirin sözlərinə görə, ölkəmizdə təxminən 1,5 milyon hektara yaxın suvarılan sahə mövcuddur ki, bunun da 78 faizini birillik, 9 faizini çoxillik, təxminən 13 faizini isə böyük sahələrin suvarılması təşkil edir.

Nazir, həmçinin bildirib ki, Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının 90 faizi suvarılan sahələrdən əldə olunur. Onun sözlərinə görə, məhsuldarlığın artırılması və sudan səmərəli istifadə üçün suyun sistemli şəkildə idarə olunmasına nail olunmalıdır. Qeyd olunub ki, dünyada baş verən iqlim dəyişiklikləri ölkəmizdən də yan keçməyib. Elə ötən il ölkəmizdə 160 min hektara yaxın sahənin quraqlığa görə məhv olması da qlobal iqlim dəyişikliklərinin mənfi təzahürlərinin nəticəsidir.

“Bakı Su Həftəsi” sərgisinə həsr olunmuş konfransında ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək bildirib ki, su problemi Azərbaycanda keçirilməsi nəzərdə tutulan COP29 beynəlxalq tədbirində iştirakçı dövlətlər qarşısında qaldırılacaq. Onun sözlərinə görə, COP29 zamanı məhz su təhlükəsizliyi, uyğunlaşma planı strategiyaları ilə bağlı danışıqların aparılması planlaşdırılır. “Təbii ki, region səviyyəsində əməkdaşlıq mexanizmindən bəhrələnə bilmirik. Dünyada 153 ölkə qonşu dövlətlərdən gələn sulardan istifadə edir. Təxminən 3 milyard insan bir neçə ölkənin ərazisində yerləşən çayların hövzəsində yaşayır. Bu səbəbdən beynəlxalq əməkdaşlığın önəminə region ölkələrinin diqqətini cəlb etməliyik”, – deyə U.Tağıyeva vurğulayıb.

Nazir müavini daha sonra qeyd edib ki, bu gün ölkədəki su problemini şəhər əhalisi bir o qədər hiss etməsə də, fermerlər qıtlıqdan ciddi əziyyət çəkirlər. Ü.Tağıyeva hesab edir ki, qıtlığa səbəb olan amil əhalinin artımı və sudan düzgün istifadə edilməməsidir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Əsəd Şirinov çıxışında ölkəmizin su ehtiyatları ilə bağlı məsələlərdən bəhs edib. Azərbaycanın su ehtiyatlarının məhdud olan ölkələrdən olduğunu vurğulayan müşavir bu səbəbdən də şirin sudan səmərəli istifadə etməyin vacibliyini önə çəkib. Ölkəmizin şirin suya olan illik tələbatının 10 milyard kubmetr təşkil etdiyini söyləyən müşavirin sözlərinə görə, su ehtiyatlarımızın əsas hissəsi transsərhəd çaylardan asılıdır ki, bunun da 90 faizi Böyük və Kiçik Qafqaz dağlarının hesabına formalaşır. Qeyd olunub ki, 2020-ci ildən bu yana Azərbaycanda su anbarlarında təqribən 5 milyard kubmetrdən çox su toplanıb ki, bu da ciddi tənzimləmə, dürüstləşdirmə və qrafiklər nəticəsində mümkün olub. “Ötən ilə nisbətən anbarlarda olan su ehtiyatları 3 milyard kubmetr daha çoxdur. Bunlar yaxşı nəticələr olsa da, üzünmüddətli strategiyaya və inkişaf yoluna baxdıqda toplanan su bir il və ya ilin yarısına bəs edəcək həcmdədir”, – deyə o əlavə edib.

Agentlik sədrinin müşaviri daha sonra deyib ki, son 20 ildə Azərbaycanda buzlaqların əriməsi 13 kilometrə çatıb. Onun sözlərinə görə, mövcud buzlaqların 80 faizi əsrin sonuna qədər tükənəcək ki, bu da o deməkdir ki, ölkədəki mövcud kiçik dağ çaylarının əksəriyyəti tamamilə quruyacaq, digər qismi isə mövsümi çaylara dönəcək. Ə.Şirinovun sözlərinə görə, iqlim dəyişikliklərinin sürətini, urbanizasiyanı və əhalinin artımını nəzərə alsaq, Azərbaycan qətiyyətlə yeni müasir texnologiyaların istifadəsinə, yeni əməkdaşlıqlara açıq olmalıdır.

Konfransda çıxış edən “Hidroloq” MMC-nin baş mütəxəssisi, texnika elmləri doktoru, Əməkdar mühəndis Əhməd Məmmədov isə bildirib ki, son üç ilin məlumatına əsasən, Mingəçevir su anbarının səthindən ildə 1,2-1,4 milyard kubmetr su buxarlanır ki, daha əvvəllər bu rəqəm 1 milyard kubmetr təşkil edib. Tanınmış mütəxəssisin sözlərinə görə, Azərbaycanın daxili su ehtiyatı illik orta hesabla 10 milyard kubmetr təşkil edir ki, bunun da 1,4 milyard kubmetri buxarlanır. Qeyd olunub ki, su anbarlarının tikintisi bir çox məsələlərin həllinə kömək etməklə yanaşı, həmin sututarların səthindən böyük buxarlanmalar müəyyən problemlər də yaradır.

Baş mütəxəssis daha sonra qeyd edib ki, düzənlikdə tikilən su anbarlarında itkilər dağətəyi ərazilərə nisbətən daha çox olur. “Yağan qarların əksəriyyəti artıq fevral ayından əriyib. İqlim dəyişikliyindən əvvəl isə qarlar may ayında əriməyə başlayırdı. Bu, su anbarlarının tikintisini vacib edir. Amma anbarları düzənlik yox, dağətəyi yerdə tikməliyik. Çünki dağətəyi yerdə tikilən su anbarı ilə düzənlikdəki su anbarı arasında su itkilərində 15-20 faiz fərq var”,– deyə Ə.Məmmədov bildirib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

---



# AÇG və “Şahdəniz”də hasilat 3,5 faiz yüksəlib

**Cari ilin yanvar–fevral aylarında ölkədə 4,8 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Bununla bağlı Energetika Nazirliyindən verilən məlumatda neft hasilatının 2,7 milyon tonu “Azəri-Çıraq-Günəşli”nin, 0,7 milyon tonu (kondensat) “Şahdəniz”in, 96 min tonu (kondensat) “Abşeron” yatağının payına düşdüyü, həmçinin SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatının 1,3 milyon ton təşkil etdiyi bildirilib.**

İki ay ərzində 3,9 milyon ton neft (kondensatla birlikdə) ixraca yönəldilib. Bunun 3,4 milyon tonu konsorsiumun, 0,5 milyon tonu isə SOCAR-ın payına düşüb.

Qeyd edək ki, “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqları istismara verildən cari il martın 1-dək (kondensatla birlikdə) ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artımla 632,7 milyon ton neft hasil edilib. “Azəri-Çıraq-Günəşli”dən ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artımla 587,5 milyon ton neft, “Şahdəniz”dən isə 10,2 faiz artımla 45,2 milyon tona yaxın kondensat çıxarılıb. Bundan 630,7 milyon tonu ixraca nəql edilib.

Cari ilin yanvar-fevral aylarında ölkədə neftin emalı ötən illə eyni səviyyədə, yəni 1,1 milyon tona yaxın təşkil edib.

***XQ***

---

# İstehlakçılara qaytarılan vəsait 6 dəfə artıb

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən sahibkar-istehlakçı münasibətlərinin inkişafına yönəlmiş maarifləndirmə tədbirləri istehlakçı hüquqlarının müdafiəsi sahəsinə öz müsbət töhfəsini verir.**




Bununla bağlı adı çəkilən Dövlət Xidmətindən bildirilib ki, cari ilin yanvar ayında təmin olunmuş müraciətlər üzrə istehlakçılara sahibkarlıq subyektləri tərəfindən 96 min 643 manat vəsait qaytarılıb. Ötən ilin analoji dövrü ilə müqayisədə bu il 6 dəfədən çox artım qeydə alınıb.

***XQ***

---

# 2 ayda vergi daxilolmaları 3 milyard manatı keçib

**Bu ilin yanvar–fevral aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 3 milyard 156,6 milyon manat vergi daxil olub. Qurumun bununla bağlı məlumatına görə, həmin vəsaitin 1,9 milyard manatdan çoxu qeyri-neft-qaz sektorundan toplanılıb. Bu isə 1 il əvvələ nisbətən 14,8 faiz çoxdur.**

Regionlarda da vergi yığımı artıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında bildirib ki, 2023-cü ildə Azərbaycanın regionlarında vergi yığımı 2022-ci illə müqayisədə 11 faiz çox olub. Onun sözlərinə görə, ötən il regionlardan 1,5 milyard manat vergi yığılıb.




***XQ***

# Cənubi Qafqazda geosiyasi avantüra və konstruktivizm: həlledici tarixi savaş

### II məqalə

***Gələcəyiniz sizin bu gün nə etdiyinizdən asılıdır.***

***Mahatma Qandi***

## "Böyük qəlb"in fəlsəfəsi

Mahatma Qandi XX əsrin nadir şəxsiyyətlərindəndir. Onu "Böyük qəlb" adlandırmışlar. Xeyirxah, nəcib, humanist, iradəli və qətiyyətli olduğuna görə dünyada hörməti çox olmuşdur. M.Qandinin fəlsəfəsini "qeyri-zorakı fəlsəfə" adlandırırlar. Çünki o, mübarizəsində, davranışında və siyasi fəaliyyətində heç vaxt zorakı üsullardan istifadə etməmişdir. Hətta, ilk çağlarda kütlə qarşısında çıxış etməkdən utanırmış.

M.Qandinin çox sayda müdrik kəlamları var. Onlar "Böyük qəlb"in yalnız xeyirxah, insanların fəzilətinə və rifahına yardımçı olan, barış xarakterli həyat tərzini ifadə edir. Mahatma Qandi bununla böyükdür! Onun dünya siyasətinə güclü təsiri olmuşdur. Hətta, amerikalı Qlenn Durland Peyc qlobal qeyri-zorakılıqla bağlı hərəkatı birbaşa M.Qandinin fəlsəfəsindən bəhrələnərək yaratmışdır. Onu da deyək ki, Q.D.Peyc əvvəlcə Harri Trumenin ideoloji məsləhətçisi və onu Koreya müharibəsinə təhrik edən adam olmuşdur. Lakin sonradan səhvini məhz M.Qandinin əsərlərini oxuduqdan sonra anlamış və mövqeyini tamam dəyişmişdir.

O, 1994-cü ildə ABŞ-nin Havaya ştatının Honolulu şəhərində Qlobal qeyri-zorakılıq mərkəzi adında qeyri-kommersiya təşkilatı yaratmışdır. 2007-ci ildə qeyri-zorakılıqla bağlı keçirilən beynəlxalq forumda qəbul edilən qərarlardan biri də öldürməkdən imtina əsasında Qlobal qeyri-zorakılıq mərkəzinin yaradılması ilə bağlı olmuşdur. 2008-ci ildə Q.D.Peycin əsasını qoyduğu və öldürmədən imtinaya əsaslanan təşkilat Qlobal qeyri-zorakılıq mərkəzinə çevrilmişdir.

Deməli, M.Qandinin fəlsəfi və siyasi baxışları hətta uzaq Amerikada belə politoloqların və siyasilərin mövqelərində humanizmə, qeyri-zorakı siyasət aparmağa doğru dəyişkiliklər etmişdir. Q.D. Peyc kimi Koreyada müharibə zərurətini H.Trumenə sübut etməyə çalışan bir ideoloq belə tamamilə dəyişmişdir.

Bunların işığında rəsmi Dehlinin Cənubi Qafqazla bağlı mövqeyinə baxdıqda, yumşaq desək, təəccüblənir və təəssüflənirsən. Niyə?

## Siyasətdə Qandi humanizmindən imtina?

M.Qandi elə siyasi fəaliyyətə üstünlük verirdi ki, heç bir insana qarşı zorakılıq olmasın. Öldürməkdən söhbət belə gedə bilməzdi. Bunu M.Qandi heç bir səbəblə, o cümlədən, geosiyasi maraqlarla izah etməzdi. Buna görə də hind siyasəti üçün zorakılıq və onun tərkibində siyasi avantüra xarakterik hal olmamalıdır. Axı, Hindistan məhz M.Qandinin fəlsəfəsi, siyasi-ideoloji fəaliyyəti sayəsində müstəqil olmuşdur. Yəni ingilislərin tarixi zorakılıq və öldürmək siyasətindən yaxa qurtarmışdır. Buna görə də Hindistan cəmiyyəti üçün müharibə, silah işlətmək və ya başqasını silahlandırmaq qəbuledilən olmamalıdır. Rəsmi Dehlinin Cənubi Qafqaz məsələsində avantürist Fransanın yanında durmasını anlamaq çox çətindir. Yaxud, Fransa avantürstdirsə, Hindistana nə olmuşdur?

Lakin son illər Hindistanın siyasi səhnəsində də qəribə hadisələr baş verir. Məsələn, son iki ildə iki müsəlman siyasətçi küçənin ortasında güllələnmişdir. Onları qətlə yetirənlər dərhal həbs olunmuşlar. Ancaq fakt olduğu kimi qalır: nədənsə bu kimi hallar əsas olaraq müsəlman liderlərlə bağlı baş verir və sonra unudulur. Səbəbini bilmirik, Hindistanın daxili işlərinə də qarışmaq fikrində deyilik. Dehlinin siyasətində məsələlər Cənubi Qafqazla bağlı olduqda isə vəziyyət dəyişir.



## Dehlinin geosiyasi "arqumenti"

Hindistan Uzaq Şərqdə və Cənubi Asiyada Çinlə geosiyasi rəqabətdə ola bilər. Pakistanla problemləri də çıxa bilər. Bunlar həmin dövlətlərin öz işləridir. Tarix var, onun konkret detalları mövcuddur. Məsələn, Hindistanda dövlətçiliyinin inkişafında türklərin rolu danılmazdır. Nadir şahın bu ölkəyə yürüşlərini kimsənin yaddaşından silə bilməzsən. Və yaxud Babur şahın "Tac Mahalı"nı necə inkar edərsən? və s.

Bunlarla yanaşı, müasir geosiyasi reallıqlar da mövcuddur. Cənubi Qafqazda həmin geosiyasi reallığın əsas faktoru Azərbaycan Respublikasının müstəqil dövlət kimi regionun ən ədalətlisi, sülhsevəri, əməkdaşlıq tərəfdarı və lideri olmasıdır. Azərbaycan 30 il işğal altında qalmış ərazisini azad etmiş və suvernliyinin tam təmininə nail olmuşdur.

Hindistan kimi işğaldan əziyyət çəkmiş böyük bir dövlət bunu daha dərindən anlamalı və qiymətini bilməlidir. Dehli qəbul etməlidir ki, dünya üzrə zorakılığa qarşı faydalı olmaq istəyirsə, Qafqazda, ilk növbədə, Azərbaycanla əməkdaşlıq etməlidir. Çünki məhz yalnız Azərbaycan Avrasiya məkanında zorakılığı aradan qaldıran mübarizə aparmış, mərdlik və qətiyyətlə şərlə savaşmış, onu məğlub etmişdir. Mahatma Qandi bunu alqışlayardı.

Azərbaycan bununla kifayətlənməmiş postmüharibə mərhələsində işğalçı və təcavüzkar Ermənistana barış və əməkdaşlıq əlini uzatmışdır. Bunu Qandi ruhunda etmişdir. Azərbaycan Prezidenti dəfələrlə İrəvanı danışıqlara səsləmişdir. Ona hər hansı hərbi təxribata uymamağı (yəni zorakı davranmamağı) məsləhət görmüşdür.

Bununla yanaşı, Azərbaycan qətiyyətlə zorakılığın qarşısını almış, insanları ölümə sürükləyən qüvvələri sərt cavabları ilə yerində oturtmuşdur! Təbii və məntiqi olaraq Hindistanın belə bir Qafqaz dövlətinə dəstək verməsi lazım gəlirdi. Həm də ona görə ki, Fransa kimi avantürsitlər və regionda sabitliyi qəbul etməyən bir sıra böyük "geosiyasi oyunçu"lar Azərbaycanın sülhsevər davranışlarından, möhtəşəm qələbəsindən doğru olmayan nəticələr çıxararaq dağıdıcı fəaliyyəti gücləndirməyə çalışırlar. M.Qandinin yaratdığı Hindistan siyasi dairələri belə vəziyyətdə düşünmədən "Azərbaycan" deməli idilər. Lakin, çox təəssüf ki, Dehli avantüristin yanında durdu və daha pisi - təcavüzkara, zorakılıq edənə, insanlara ölüm gətirənə müasir silahlar verməyə başladı.

Birbaşa silahdan istifadə edib insanları qətlə yetirən zorakı və təcavüzkar dövlətlə ona bu məqsədlə silah satan arasında geosiyasi və siyasi anlamda elə bir fərq yoxdur: hər ikisi zorakı və pozucudur, avantürisitdir. Bu anlamda Ermənistana "Bastion" verən Fransa ilə artilleriya qurğuları satan Hindistan arasında elə bir fərq yoxdur – eyni dərəcədə avantüristdirlər.

Bu davranışa bir sıra siyasilər və ekspertlər belə haqq qazandırmağa çalışırlar: Hindistan Çin və Pakistana alternativ ola biləcək geosiyasi xətt yaradır. Məsələ Azərbaycanın Çinin "Bir qurşaq, bir yol" layihəsində aktiv iştirakla bağlıdır? Yaxud Pakistanın Azərbaycanın haqq işinə ciddi dəstək verməsi Dehlidə kimlərisə qıcıqlandırmışdır? Əgər bunlar səbəb kimi rol oynayırlarsa, azərbaycanlıların bir məşhur deyimi yada düşür: "heç dəxli var"? İzah edək.

## Gerçəklə bəhanənin fərqi

Hindistanın öz geosiyasi maraqlarını təmin etmək haqqına sahib olması bizi qətiyyən narahat etmir. Bu, onun təbii haqqıdır. Həm də Azərbaycan da kifayət qədər məna yükü və məqsədi olan geosiyasi marağa malikdir və onu reallaşdırmağı çox gözəl bilir. Bakının bununla bağlı heç bir psixoloji və ya diplomatik natamamlıq kompleksi yoxdur. Əksinə, təəccüblüdür ki, rəsmi Dehli geosiyasi maraq adı altında əsl arqumentlərlə bəhanələri səhv salır.

Doğrudan da, əgər Hindistan Çinin layihəsinə alternativ yaratmağı real arzulayırsa, onda Cənubi Qafqazda sabitliyin möhkəmlənməsində maraqlı olmaldır. Təcavüzkar və revanşist Ermənistanı Fransa ssenarisi üzrə silahlandırmaq bunun tamamilə əksinə işləyən faktordur. Çünki Hindistanın verdiyi silahlar vasitəsilə Azərbaycana zərbə endirmək, bütövlükdə, regionu yenidən xaosa sürükləmək deməkdir. İstənilən müharibə Cənubi Qafqazı qarışıqlığa sürükləyəcək. O halda hansı real alternativdən söhbət gedə bilər? Cənubi Qafqazda deyil, hətta ondan kənarda ola biləcək istənilən əməkdaşlıq marşrutu etibarlı olmayacaq. Xaos oranı da yandıracaq.

Belə çıxır ki, "alternativlik" adı altında ortaya atılan Hindistan–İran–Ermənistan-Qərb dövlətləri xəyali əməkdaşlıq marşrutu təxribatdan və baş aldatmaqdan başqa bir şey deyildir. Bu, arqument deyildir. Çinin real uğurlarının gizli etirafı əsasında bu prosesi əngəlləmək üçün Amerika və Avropa ilə birlikdə avantürist hərəkətlər etməyin əlamətidir. Yəni "arqument" adı altında, əslində, bəhanənin gətirilməsidir.

Bununla Hindistan Cənubi Qafqazda siyasi və geosiyasi avantüra vasitəsilə qarışıqlıq yaratmaq istəyən Fransa ilə bir mövqedə dayanır. Onların hər ikisi regional sabitlik və əməkdaşlığa töhfə verməkdən uzaqdır.

İran da bu oyunun içində görünür. Lakin Tehran bir qədər fərqlidir. Fəal surətdə Fransa və Hindistanla hərəkət etmir. Bir sıra məqamlarda Azərbaycana tərəf referanslar edir. Ancaq İranı hələlik konstruktiv mövqedə olan region dövləti kimi qiymətləndirmək çox çətindir. Rəsmi Tehran zaman-zaman müxtəlif üsullarla Azərbaycan–Türkiyə tandeminə qarşı oldğunu emosional ifadə edir. Paralel olaraq, Ermənistanla aktiv siyasi-diplomatik əlaqələri qabardır, bir sıra təkliflər verir və hətta İrəvanı təşviq etməyə çalışır. Hiss olunur ki, regional geosiyasətdə antitürk əhval-ruhiyyəsinin yaranması üçün canfəşanlıq edir. Bu kontekstdə hərdən İran tərəfdən azərbaycanlılarla regionun başqa xalqları arasında nifaq salmağa istiqamətlənmiş təbliğat xarakterli davranışlar gözdən qaçmır.

Ancaq region üçün İran nə Fransadır, nə də Hindistan. Onun Azərbaycan və Türkiyə ilə birgə fəaliyyət göstərməsi bütövlükdə bölgənin hər bir xalqı üçün faydalı olardı.

Bunların fonunda Ermənistanın geosiyasi və siyasi avantürasının ayrıca izaha ehtiyacı olduğu görünür. Birincisi, ona görə ki, Ermənistan tarixən avantürist olmuşdur. İkincisi, indiki dövrdə Ermənistan avantürist kimi birbaşa Qərbin maşası olaraq hərəkət edir. Bu iki faktorun kəsişməsində erməni avantürasının region üçün təhlükəsi və yaratdığı risklər də özəl məzmun alır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Türkiyə – Ermənistan münasibətləri normallaşacaqmı?

**Türkiyənin XİN rəhbəri Hakan Fidanın ABŞ-a səfəri zamanı Ermənistan–Türkiyə münasibətlərinin normallaşması ilə bağlı məsələ Vaşinqtonda ABŞ prezidenti Co Baydenin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla müzakirə edilmişdir. Türkiyənin dəyişməz mövqeyi yenidən xatırladılmışdır. Türkiyənin Ermənistanla diplomatik əlaqələrin qurulmasına və sərhədlərin açılmasına hazır olduğu ifadə edilmişdir.**

Hələ 2013-cü ilin sonlarında Hakan Fidan Bakıda həmkarı Ceyhun Bayramovla keçirdiyi mətbuat konfransında demişdi: "Əvvəlcə də qeyd etdiyim kimi, Ermənistanla normallaşma yolunda heç bir maneə görmürük. Biz Azərbaycanla sülh sazişinin imzalanmasını gözləyirik. Bundan sonra bir çox texniki və bəzi siyasi məsələlər var. Bunlar həlli mümkün olmayan məsələlər deyil" . ABŞ dövlət katibi E. Blinkenlə görüşündə də Fidan Türkiyənin mövqeyinin dəyişmədiyini ifadə etmişdir.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyənin "TRT World" televiziyasına verdiyi müsahibəsində prosesin yenidən başlaması üçün təmsilçilərin tezliklə bir araya gəlməsinə ümid etdiklərini bildirmişdir. İrəvanda hesab edirlər ki, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşmasında yeni mərhələ başlamışdır. Hakimiyyət təmsilçilərinin Ermənistanın Türkiyəyə münasibətində korrektələr etməsi cəhdləri və indi Ermənistan cəmiyyətində Türkiyə ilə düşmənçiliyin aparılması siyasətinin yüksək olmaması ilə bağlı müzakirələrin getməsi bu ehtimalı gücləndirir.

İrəvanla Ankara arasında münasibətlərin nizamlanması Cənubi Qafqazda sabitlik və təhlükəsizlik arxitekturasına yeni töhfələr verə bilərmi? Türkiyənin tanınmış ermənişünas alimlərindən olan professor Kemal Çiçək belə hesab edir ki, Ermənistan və Türkiyənin xarici işlər nazirləri Ararat Mirzoyanən və Hakan Fidanın Antalyada keçirilən görüşdə ikitərəfli münasibətləri tam həll etməyə hazır olduqlarını təsdiqləməsi də göstərir ki, irəliyə addımlar atılmalıdır. Münasibətlərin təmzimlənməsi istiqəmətində bir sıra problemlərin olduğu bəllidir, amma bunlar ikitərəfli əlaqələrin qurulmasına mane olmayacaqdır. Ermənistanın Türkiyəyə qarşı bu günə qədər apardığı siyasətdən imtina etməsi lazımdıır.

Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması üçün danışıqların davam etdirilməsi qərarı ortadadır. Ankara görüşüb müzakirə etməyin tərəfdarıdır. Türkiyə tərəfindən bu danışıqlar prosesində səlahiyyətli nümayəndə Sərdar Kılıç Ermənistan təmsilçisinə İrəvanda görüşməyi təklif etdi və 10 aydan bəri təxirə salınan danışqlar prosesinə start verildi. Kılıç ADF-də gerçəkləşən paneldə "Türkiyə Ermənistanla münasibətlərini tamamilə normallaşdırmaq istəyir. Nəzərə almalı olduğumuz bəzi addımlar var, amma əvvəlcə görüşlər keçirməliyik" - demişdir.

Keçən il Moskvada olan təmaslarda münasibətlərin normallaşması prosesində heç bir ilkin şərtin olmaması ilə bağlı razılığa gəldiklərini qeyd edən Kılıç vurğulamışdır ki, erməni tərəfinin "gələcək görüşlər üçün ilkin şərt kimi üçüncü ölkə vətəndaşlarına və hər iki ölkənin diplomatik pasportu olan şəxslərə sərhədlərin açılması" ilə bağlı təklifi əslində Ermənistanın prosesə bir paketdə baxılmasına qarşı çıxması deməkdir. Türkiyənin mövqeyi belədir ki, son nəticə əldə etmək üçün bütün problemlər kompleks şəklində həll edilməlidir

Kılıç demişdir: "Rubenə dəfələrlə demişəm ki, danışıqlar üçün İrəvana getməyə hazıram. Onunla Ankarada da görüşməyə hazıram". Daha sonra o əlavə etmişdir: "Bu o deməkdir ki, bizim problemimiz var. Görüşüb danışmaq lazımdır. Əgər həll yolu tapmaq istəyiriksə, vacib olan görüşməkdir və artıq bir ildir ki, görüşə bilmirik.."

Sərhədin üçüncü ölkə vətəndaşlarına və diplomatik pasportu olanlara açılmasına dair əldə etdiyi razılaşmaya baxmayaraq, Ermənistan–Türkiyə sərhədinin bağlı qalmaqda davam etməsi qarşılıqlı etimada zərər vurmuşdur. 2023-ci ilin yazında 3-cü ölkə vətəndaşlarına sərhədin açılmasına münasibətdə Kılıç, zamanı gəldikdə onu hər kəsə açmaq istədiklərini erməni nümayəndənin nəzərinə çatdırmışdır. Bu o deməkdir ki, üçüncü ölkə vətəndaşlarına sərhədin açılmasının elə də ciddi əhəmiyyəti yoxdur. Həm də üçüncü ölkə vətəndaşı deyərkən kimləri nəzərdə tuturlar? Bölgə ölkələri olan İranın da, Gürcüstanın da Türkiyə və Ermənistanla sərhədi açıqdır və onların Ermənistan və ya Türkiyə üzərindən bu sərhədi keçməsinin mənası yoxdur. Diplomatik pasportu olanlara gəlincə bu adamların sərhədi keçməsində bir sıxıntısı olmur . Göründüyü kimi, Ermənistan rəsmilərinin ortaya atdığı məsələ ciddi maneə deyildir, Türkiyə ilə münasibətlərin həqiqətən, yaxşılaşdırmaq istəyən ölkə daha ciddi problemlərdən yayınmaq üçün bəhanə axtarır.




Kılıçın Ermənistanın danışıqlar üçün ilkin şərtlər irəli sürməsi ilə bağlı bəyanatına cavab olaraq Ermənistanın xüsusi nümayəndəsi Ruben Rubinyan rəsmi İrəvanın danışıqlar üçün heç bir ilkin şərt qoymadığını bildirib. Maraqlıdır ki, Kılıç Rubinyana növbəti görüşün İrəvanda olmasını təklif edib, bu, Ermənistanın öz nümayəndəsinin öz ölkəsinə dəvəti kimi qəbul edilib. Ermənistanlı politoloq Suren Surenyants bu təklifi şərh edərkən deyib: – "Bu, biabırçılıqdır, Rubinyanın İrəvana dəvət edilməsi o deməkdir ki, türklər İrəvanı özlərinin sərbəst hərəkət edəcəkləri məkan hesab edirlər".

Bununla belə, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması prosesində maneçilik törədən xüsusiyyətləri Rubinyan dilə gətirmir. Diplomatiyada elə şeylər var ki, o açıq deyilməz, amma öz-özlüyündə problem kimi prosesin aparılmasına əngəl təşkil edə bilər. Ermənistan elan edir ki, Türkiyə heç bir şərt irəli sürmədən danışıqlara, normallaşma tədbirlərinə getməlidir. Amma ağlı başında olan hər bir erməni də bilir ki, məsələ müzakirə masasına qoyularkən ortaya bəzi problemlər çıxacaq. Məsələn, Ermənistanın 1991-ci il Müstəqillik Bəyannaməsində Türkiyənin Şərqi Anadolu ərazilərinə iddia var və 1995-ci il Ermənistan Konstitusyasının pleambluasında Türkiyənin bəzi əraziləri "Qərbi Ermənistan" adlandırılmışdır, bu, birbaşa qonşu ölkəyə ərazi iddiasıdır, həmin sənəddə qondarma "erməni soyqırımı"nın tanınması kimi ifadələr yer almışdır, Ermənistanın dövlət gerbində Ağrı dağı əks olunub, dövlət himnində türklər "düşmən" olaraq təqdim olunur və s. Bütün bunlar Türkiyəyə qarşı Ermənistanın siyasi hörmətsizliyi kimi qəbul edilməlidir və iki ölkə arasında münasibətlərin normallaşmasını mümkünsüz edən səbəblərdən bir neçəsidir. Türkiyə ilə danışıqlar apararkən Ermənistan həmin xətdən, ideologiyadan imtina etməklə bağlı hansı addımı atmışdır? Müstəqillik Bəyannaməsindən imtina edibmi? Ölkə Konstitusuyasını dəyişdirmək yolu tuturmu? Əslində danışıqların davam etdiyi müddətdə Ermənistan tənzimləmə işinə mane olan heç bir prinsipdən imtina etməmişdir.

Türkiyənin birbaşa dövlət marağında olduğu Zəngəzur dəhlizinin açılması, Azərbaycanın qərb bölgələrinin Naxçıvana bağlanması, oradan da Türkiyə ilə komunikasiya əlaqələrinin olmasını öhdəsinə alan Ermənistan bundan imtina edirsə, Türkiyə ilə hansı normallaşmadan danışmaq olar? Bir çox siyasi məsələlərdə Ermənistan aydın mövqe nümayiş etdirmir, müəmmalı gedişlər edir. Türkiyə bölgədə sülh və sabitliyin qalıcı olmasını təmin edəcək Ermənistan–Azərbaycan sülh anlaşmasının əldə olunmasında da maraqlıdır. Dövlətin siyasi iradəsi kimi açıq ifadə olunur. Azərbaycanla sülh sazişinin bağlanması yönündə də hələ ciddi bir irəliləyiş yoxdur. Antalya forumunda Rubinyanın "sərhədləri günü bu gün aça bilərik" ifadəsi illuziyadan başqa bir şey deyildir. Həm də məsuliyyətsiz bəyanatdır. Bu gün Ermənistan rəhbərliyində, Türkiyə ilə münasibətləri tənzimləmək prosesini üzərinə götürmüş şəxslərdə dövlət ciddiyyəti yoxdur.

Bununla belə, Türkiyə bütün qonşularla münasibətləri sahmana salmaq tədbirlərini davam etdirməkdə siyasi iradə ortaya qoyur.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 132** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”nin 16-cı hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 572 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya üzvlərinin sayı 24 (iyirmi dörd) nəfərdən ibarət müəyyən edilsin.”.

**2.** 2-ci hissənin “Kollegiyanın üzvləri:” bölməsi üzrə:

2.1. “Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru” sözlərindən sonra “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin regional idarələrinin rəisləri” sözləri əlavə edilsin;

2.2. “Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının prezidenti” sözləri “Azəridmanservis” MMC-nin direktoru” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 133** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 19 yanvar tarixli 34 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”nin cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü hissənin “cəmi” sütununda “23” rəqəmləri “10” rəqəmləri ilə əvəz edilsin və “ərazi və yerli bölmələr üzrə” sütunundan “13” rəqəmləri çıxarılsın.

**2.** 35-1-ci hissənin “cəmi” sütununda “2” rəqəmi “3” rəqəmi ilə, “aparat üzrə” sütununda “2” rəqəmi “3” rəqəmi ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 35-2-ci və 35-3-cü hissələr əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 35-2. | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi | 3 | 3 | - | - |
| 35-3. | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi | 17 | 4 | - | 13 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 134** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası”nın və “Kvota şamil edilməyən müəssisələrin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il .22 noyabr tarixli 213 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası”nın və “Kvota şamil edilməyən müəssisələrin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə “vətəndaşlar” sözü “şəxslər” sözü ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası” üzrə:

2.1. adında, preambulasında, 1.1-ci bəndin birinci abzasında, 1.3-cü bəndin birinci və yeddinci abzaslarında, 3.3-cü, 3.4-cü bəndlərdə ismin müvafiq hallarında “vətəndaşlar” sözü ismin müvafiq hallarında “şəxslər” sözü ilə əvəz edilsin;

2.2. 1.2-ci bəndə “orta” sözündən sonra “illik” sözü əlavə edilsin;

2.3. 2.1-ci və 2.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.1. Bu Qaydanın 1.2-ci bəndinə uyğun olaraq müəyyən edilən kvota Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sistemində (bundan sonra - MEİS) qeydə alınmış məlumatlar əsasında real vaxt rejimində MEİS tərəfindən avtomatlaşdırılmış qaydada hesablanır. Kvota müəyyən edilərkən alınan nəticələr tam ədəd olmadıqda MEİS tərəfindən ən yaxın tam ədədə yuvarlaqlaşdırılır.

2.2. İşəgötürənlər kvota barədə məlumatı kvota müəyyən edildiyi gündən 5 (beş) iş günü müddətində “e-sosial” internet portalında yaradılmış elektron kabinetləri vasitəsilə əldə edirlər.”;

2.4. 2.3-cü və 2.4-cü bəndlər ləğv edilsin;

2.5. 3-cü hissə üzrə:

2.5.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.1. Müəssisələr üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə işçilərin qəbul edilməsi Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarının (bundan sonra - Agentliyin yerli qurumları) və ya “DOST” mərkəzlərinin göndərişi ilə həyata keçirilir. İşəgötürən MEİS-in “Məşğulluq” altsistemi (bundan sonra - MAS) tərəfindən elektron qaydada təqdim edilmiş göndərişə əsasən 5 (beş) iş günü müddətində sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin vakansiya üzrə işə qəbulundan imtina etməsi və ya vakansiyaya uyğun işlə təmin etməsi ilə bağlı qərarı barədə göndərişdə müvafiq qeydlər aparır və bu barədə məlumatı MAS-a daxil edərək, gücləndirilmiş elektron imzası ilə təsdiqləyir.”;

2.5.2. 3.2-ci, 3.5-ci bəndlər və 4-cü hissə ləğv edilsin;

2.5.3. 3.3-cü bəndə “ehtiyacı olan” sözlərindən sonra “və işə düzəlməkdə çətinlik çəkən” sözləri əlavə edilsin və həmin bənddən “şəhər, rayon Məşğulluq Mərkəzinə və ya “DOST” mərkəzinə ən geci 5 gün müddətində məlumat vermək şərtilə,” sözləri çıxarılsın;

2.5.4. 3.4-cü bəndə (hər iki halda) “ehtiyacı olan” sözlərindən sonra “və işə düzəlməkdə çətinlik çəkən” sözləri əlavə olunsun və həmin bənddə “şəhər, rayon məşğulluq mərkəzləri” sözləri “Agentliyin yerli qurumları” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 135** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 632-VQD nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 30 may tarixli 1437 nömrəli, “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2017-ci il 14 iyul tarixli 1531 nömrəli və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” 2021-ci il 12 iyul tarixli 1387 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2410 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respubli-kasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 632-VQD nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 30 may tarixli 1437 nömrəli, “Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 739-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2017-ci il 14 iyul tarixli 1531 nömrəli və “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” 2021-ci il 12 iyul tarixli 1387 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2410 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 575 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2522 (Cild I) ilə təsdiq edilmiş “Yerləşmə vasitələri hesab edilən mehmanxana tipli obyektlərin və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektlərinin Siyahısı”nın “Qeyd” hissəsi ləğv edilsin.

**2.** “Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları”nın təsdiq edilməsi və aktiv istehlakçılar tərəfindən bərpa olunan enerji mənbələri hesabına istehsal edilən elektrik enerjisinin güc həddinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1367 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**3.** “Bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisinin mənbəyinə dair sertifikatın verilməsi Qaydası və formasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 347 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1368 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

**4.** “Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 348 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1369 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 140** **Bakı şəhəri, 13 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında***

“Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1010-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 dekabr tarixli 2375 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 136** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Yaşayış minimumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 29 dekabr tarixli 170 nömrəli, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 7 fevral tarixli 192 nömrəli, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 415-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2012-ci il 4 sentyabr tarixli 697 nömrəli, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə” 2014-cü il 11 avqust tarixli 242 nömrəli, “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” 2016-cı il 22 iyun tarixli 940 nömrəli və “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2018-ci il 11 yanvar tarixli 1784 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2407 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikası Prezidentinin “Yaşayış minimumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 29 dekabr tarixli 170 nömrəli, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 7 fevral tarixli 192 nömrəli, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 415-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2012-ci il 4 sentyabr tarixli 697 nömrəli, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə” 2014-cü il 11 avqust tarixli 242 nömrəli, “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” 2016-cı il 22 iyun tarixli 940 nömrəli və “Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2018-ci il 11 yanvar tarixli 1784 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2407 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 744 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 469 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar”ın 3-cü hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1952 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası”nın “Qeyd” hissəsi ləğv edilsin.

**4.** “Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin təşkili və keçirilmə Qaydası”nın və “Alıcı missiyasında iştirak edəcək xarici şəxslərin müəyyən edilməsi Meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 31 oktyabr tarixli 470 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2183 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 138** **Bakı şəhəri, 12 mart 2024-cü il**

***“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645 (Cild I) ilə təsdiq edilmiş “Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası”nın 43-cü hissəsinin birinci abzasında “istehsalat təcrübəsi” sözləri “ixtisas üzrə təcrübə” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 870 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram”ın “5. Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram üzrə Tədbirlər Planı”nın 5-ci hissəsinin “Tədbirlərin adı” sütununa “təcrübəsinin” sözündən sonra “və ya ixtisas üzrə təcrübənin” sözləri ilə əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365 (Cild I) ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.5-ci bənd üzrə:

3.1.1. dördüncü abzasda “istehsalat” sözü “tələbələrin ixtisas üzrə” sözləri ilə əvəz edilsin;

3.1.2. on birinci abzasda “istehsalat təcrübələrinin” sözləri “ixtisas üzrə təcrübələrin” sözləri ilə əvəz edilsin;

3.2. 8.7.6-cı yarımbənddə “istehsalat” sözü “tələbələrin ixtisas üzrə” sözləri ilə əvəz edilsin;

3.3. 8.7.10-cu yarımbəndin doqquzuncu abzası aşağıdakı redaksiyada verilsin:

“tələbələrin ixtisas üzrə təcrübəsi;”.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 366 (Cild I) ilə təsdiq edilmiş “Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8.4.3-cü yarımbənddə “istehsalat təcrübələrinin keçirilməsinə, buraxılış işlərinin yerinə yetirilməsinə, tələbələrin” sözləri “tələbələrin ixtisas üzrə təcrübələrinin keçirilməsinə, buraxılış işlərinin yerinə yetirilməsinə,” sözləri ilə əvəz edilsin;

4.2. 8.4.10-cu yarımbənddə “istehsalat” sözü “ixtisas üzrə” sözləri ilə əvəz edilsin;

4.3. 8.6.6-cı yarımbənddə “istehsalat təcrübəsi” sözləri “ixtisas üzrə təcrübə” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 450 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1870 (Cild I) ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.6.4-cü yarımbənddə “istehsalat təcrübəsində” sözləri “ixtisas üzrə təcrübədə” sözləri ilə əvəz edilsin;

5.2. 3.18-ci bənddə “istehsalat təcrübəsi” sözləri “ixtisas üzrə təcrübə” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Azərbaycanı dünyada tanıdanlar

# Dumanlı Albionu heyran qoyan skripkaçı

## *Londonda öz kamera orkestrini yaradan azərbaycanlı qızın sənət uğurları*

**Soydaşımız Nəzrin Rəşidova skripkada ifaları ilə Dumanlı Albionu heyran qoyanlardandır. O, son 70 ildə Böyük Britaniyada yaradılmış yeganə qadın kamera orkestrinin yaradıcısıdır. Nəzrinə Stradivarinin, eləcə də kralın oğlu – 3-cü Karlın və şahzadə Diananın skripkalarında çalmaq nəsib olub.**



Onun haqqında ilk dəfə "Media.az" saytında verilmiş geniş və maraqlı material diqqətimizi cəlb etmişdi. Sonra internet şəbəkəsi vasitəsilə məlumatlarımızı daha da artırdıq. Öyrəndik ki, Nəzrinin Azərbaycan Dövlət Konservatoriyasının (hazırkı Bakı Dövlət Musiqi Akademiyası) məzunları olan atası və anası bir vaxtlar musiqi məktəblərində skripkadan dərs deyiblər. Atası hətta bir ara maestro Niyazi ilə birlikdə çalışıb. Belə bir mühitdə böyüyən qızcığaz körpə yaşlarından musiqiyə, skripkaya bağlanıb.

– İlk çıxışım 1991-ci ildə Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) baş tutub, – deyə Nəzrin xanım həmkarımız Züleyxa İsmayılova ilə söhbəti zamanı bildirib. – Balaca qız idim, dolu zala baxıb həyəcanlansam da, özümü ələ ala bildim və xırdaca skripkamda ifam diqqətlə dinlənildi, alqışlandı. İndi də o aləti saxlayıram.



Sonra ailəsi ilə Qahirəyə, oradan da Londona köçən Nəzrin ingilis təmayüllü məktəblərdə oxuyub. Qahirə Opera Teatrında uğurla çıxış edərək qızıl medal alıb, Ulu öndər Heydər Əliyevin 1994-cü ildə Misirə səfəri zamanı onun şərəfinə təşkil olunan ziyafətdə 6 yaşlı qız da öz məharətini göstərib. Həmçinin Misirə konsert proqramı ilə gələn bir çox solist və dirijorları öz ifaları ilə heyrətləndirib. Məşhur amerikalı musiqiçi Lequdi Menuxin, sovet və rus dirijoru, pianoçu və bəstəkar Gennadi Rojdestvenski, Yaponiya sənətkarı Takeşi Kobayaşi ona maraqla qulaq asıblar.

Nəzrin təhsilini 1995-ci ildən Londonda davam etdirib. Nüfuzlu Purcell Musiqi Məktəbində professor Lidiya Mordkoviçin sinfində oxuyub. Almaniyada konsertdə çıxış edəndə 8 yaşı olub. Qışda atası Şamil müəllim Qahirədən Londona gələr, yazda onu Misirə konsertə dəvət edərdilər, yayda isə ailə birlikdə Bakıda dincələrdi.

Professor Mordkoviçin və dünyaşöhrətli pedaqoq Feliks Andriyevskinin köməyi ilə Nəzrin ünlü italyan və fransız bəstəkarların əsərlərini, o cümlədən etüd və kapriççioları mənimsəyib. Yeri gəlmişkən, onun doktorluq işi də elə bu mövzuda olub. Bundan əvvəl isə soydaşımız Kral Musiqi Akademiyasında professor Erik Qrünberqin sinfində oxuyub. Ondan razılıq edən müəllimi bir dəfə deyib: "Səndə skripkada hər şey rahat alınır".

Bir dəfə hazırkı Böyük Britaniya kralının oğlu üçün düzəldilmiş özəl skripkada çalmağı da ona etibar ediblər. O zaman Nəzrinin oxuduğu məktəb prins Çarlzın himayəsində idi və o, məktəbə baş çəkməyə gələndə həmin aləti də gətirmişdi. Ən istedadlı gənc musiqiçi kimi, məhz Nəzrin o skripkada mötəbər qonaq üçün etüd ifa edib. Akademiyada oxuyarkən isə soydaşımız Stradivarinin skripkası ilə çıxış etmək fürsəti qazanıb (Korifeylərə məxsus alətləri heç də hər tələbəyə etibar etmirlər).

Nəzrin xanımın fərdi məşğələlərə vaxtı olsun deyə, istisna hal kimi, tələbə orkestrinin məşqlərindən azad edilib. Rektorla söhbəti zamanı onun özünün qızlardan ibarət kollektivini təşkil etmək ideyası yaranıb. Hətta ondan yaşca böyük qızlar da Nəzrinə inanaraq, məşqlərə gəliblər və beləliklə, 13 ölkədən müxtəlif milliyyətli 17 qızın peşəkar səyləri fərəhli nəticə verib – "FeMusa" kamera orkestri yaranıb. 2009-cu ildə ilk konsert uğurlu alınıb. Sonra qızlar Fransada, Omanda çıxışlar ediblər, 2 dəfə Azərbaycanda konsert veriblər: dövlət filarmoniyasında və Qəbələdə. Eyni zamanda "BBC News" və digər telekanallarda təqdim olunublar. Tanınmış ingilis bəstəkar Pol Lyuis "FeMusa"nın ifasında özünün bir əsərini dinlədikdən sonra 3 gözəl miniatür yazaraq, Nəzrinə və orkestrə həsr etdiyini söyləyib.

**Biz bu yazını hazırlayarkən Londona zəng edərək, Britaniya Azərbaycan Cəmiyyətinin sədri Fəridə Pənahovadan Nəzrin Rəşidova haqqında fikrini öyrəndik. Fəridə xanım dedi:**

– Nəzrini lap uşaqlığından tanıyıram. Bizim səfirliyin açılış mərasimindəki uğurlu çıxışını da yaxşı xatırlayıram. Əsl istedad sahibi, işıqlı aurası olan, zəhmətsevər musiqiçidir. Yüksək təşkilatçılıpq qabiliyyəti ilə seçilir. Bir sözlə, Nəzrin hər cür tərifə layiq sənətçidir. Belə bir yerdə qadın kamera orkestri yaradıb tanıtmaq heç də hər kəsin bacara biləcəyi iş deyil. Nəzrin isə bunun öhdəsindən layiqincə gəlib. Məhz onun kimi soydaşlarımız burada Azərbaycanın adını daha da ucaldırlar. Nəzrinə daha böyük nailiyyətlər arzulayıram.

"FeMusa" orkestri Azərbaycan bəstəkarlarının musiqilərini də sevə-sevə ifa edir. Hər konsertin proqramına Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, Vasif Adıgözəlovun, Aqşin Əlizadənin əsərləri salınır. Onu da deyək ki, Fikrət Əmirovun "Nizami" simfoniyasını ilk dəfə Böyük Britaniyada 1965-ci ildə, bəstəkarın Londona səfəri zamanı tanınmış dirijor Leopald Stakovskinin idarəsi ilə BBC-nin orkestri ifa edib. O zaman Fikrət Əmirov BBC radiosuna dəvət olunub və dinləyiciləri muğamla tanış etmək üçün tar çalıb. Ümumiyyətlə, Nəzrin xanımın fikrincə, Azərbaycan musiqisi həm İngiltərədə, həm də digər ölkələrdə sevilir, xarici auditoriya bizim bəstəkarların əsərlərini heyranlıqla dinləyir.

Azərbaycana hər gələndə sevinən Nəzrin özünü yurdumuzun ayrılmaz bir parçası sayır. Atası Şamil müəllim telefon söhbətimiz zamanı ötən ayın sonlarından Bakıda olduqlarını bildirdi:

– Xocalı soyqırımının 32-ci ildönümü qeyd olunan günlərdə burada olmaq1dan qürurlandıq. Nəzrin bütün hərəkətləri ilə Vətən müharibəsində tarixi qələbəmizə və Qarabağın azad olunmasına, Prezidentimizin Xankəndində, Xocalıda üçrəngli bayrağımızı qaldırmasına ürəkdən sevindiyini büruzə verirdi. Bir həftə olar ki, Vətəni tərk etmişik.

**Nəzrin dərsə tələsdiyi üçün onunla ətraflı danışa bilmədik. Bununla belə, 1-2 suala qısa da olsa, cavab verdi:**

– Deyirsiniz, xaricdə Azərbaycana aid olan nə çatışmır? Məncə, çox şey. Məsələn, Günəş, qohum-əqraba, milli mətbəx, ecazkar Bakı bulvarı, təbəssümlü çöhrələr və sair. Düzdür, mən plov, dolma, dovğa, düşbərə, qutab, paxlava, şorqoğalı və şəkərbura bişirə bilirəm, amma, nə sirdirsə, Bakıda daddıqlarımın yerini vermir.

– Haçansa Vətənə qayıtmaq fikriniz varmı?

– İndilikdə dəqiq bir söz deyə bilmərəm. Düzünə qalsa, Vətən mənim içimdədir – bu, bizim musiqimizdir: unudulmaz Tofiq Quliyev, Fikrət Əmirov, Qara Qarayev və başqalarıdır. Bir də ki, hansı janrı təmsil etmələrindən asılı olmayaraq, incəsənət adamları üçün vətən elə bu dünyadır...

Atası dedi ki, onsuz da Nəzrin özü və işi haqqında geniş danışmağı sevmir. Qeyd edə bilərsiniz ki, o, 16 yaşında Avropada keçirilən beynəlxalq müsabiqənin iştirakçısı və qalibi olub. Sonralar bir sıra nüfuzlu mükafatların – İequdi Menuxin adına skrpikaçıların beynəlxalq müsabiqəsində xüsusi mükafata, Polşada da Venyavski adına beynəlxalq müsabiqədə isə fəxri diploma layiq görülüb. Məqsədi "FeMusa"nı dünyaya daha yaxından tanıtmaqdır.

**Ə.DOSTƏLİ**
**XQ**

# AMEA prezidentinə İraq mükafatı verilib

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli akademiyanın Rəyasət Heyətində tanınmış kərküklü tədqiqatçı, şair və yazıçı Şəmsəddin Kuzəçi ilə görüşüb.**



XQ xəbər verir ki, görüşdə Azərbaycan-Kərkük ədəbi əlaqələrindən söz açılıb, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinin İraqda, görkəmli Kərkük ədəbiyyatşünası Əta Tərzibaşının 100 illik yubileyinin isə Bakıda elmi konfranslarla keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

Şəmsəddin Kuzəçi İsa Həbibbəyliyə təltif olunduğu "İraq kültür bakanlığı ödülü"nü təqdim edib. Həmçinin, türkmən yazarın yeni nəşr edilmiş "Məqalələr" toplusu da AMEA rəhbərinə hədiyyə edilib.

İsa Həbibbəyli isə bu günlərdə akademiyada çap olunmuş Mahmud Kaşğarinin "Divani-lüğat-it-türk" və Məhəmməd Füzuliyə həsr olunmuş kitabları tanınmış Şəmsəddin Kuzəçiyə hədiyyə edib.

Görüşdə AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimov, AMEA-nın vitse-prezidentləri, akademiklər İradə Hüseynova və Gövhər Baxşəliyeva, həmçinin filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev iştirak ediblər.

**Anar ƏLİ**
**XQ**

El sənətləri

**Bu gün Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri hesab edilən Qobustanda, Gəmiqayada daş üzərində rəsmlər bədii oyma sənətinin ilkin nümunələridir. Bu sənət daş, ağac, sümük və başqa materiallar üzərində də yaradılır.**



# Oymalardan aşkarlanan gözəllik

Çağdaş sənətkarlarımızın bədii oyma nümunələri də maraqlıdır. Gəncədə bu sahənin ustadlarından biri Saləddin Məhərrəmovdur. O, 1970-ci ildə Gəncə Uşaq Rəssamlıq Məktəbini, 1979-cu ildə isə Gəncə Pedaqoji Texnikumunun rəssamlıq fakültəsini bitirib. 2011-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Saləddin müəllim deyir ki, oymaçı olmaq insandan iki şey tələb edir: rəssamlıq qabiliyyəti və böyük səbr. "Təxminən 30 ildir, bu sənətlə məşğulam. Təbiət vurğunu olduğum üçün gözəllikləri ağac üzərində cilaladıqca zövq alıram. Hər bir ağacın öz naxışı, öz gözəlliyi var. Bunu görmək, duymaq lazımdır".



İstedadlı rəssam bir çox Respublika və Beynəlxalq miqyaslı sərgilərdə iştirak edərək orjinal əsərləri ilə diqqət çəkib. Onun əsərləri Azərbaycan, Rusiya, Amerika və başqa ölkələrdə kolleksiyalarda qorunub saxlanır.

O, hər zaman düşündüyü mövzulara könül duyğularını qata-qata ağac üzərinə köçürür və gözəl əsərlər ərsəyə gəlir. Təqdim etdiyi hər bir əsər öz təxəyyülünün məhsulu kimi hasilə yetir, təkrarsız olur. Onun sənətinin özünəməxsus sirr kodları var. Məlumdur ki, oyma işlərində əsasən qiymətli ağac növlərindən istifadə edilir. Qoz, palıd, cökə və çinar oduncağı gərək olur. Bir əsəri ərsəyə gətirmək üçün ən azı 25-30 gün vaxt lazımdır.

Saləddin Məhərrəmovun əsərlərində görünən tərəflər və görünməyən gizlinlər çoxdur. Nəzərdə tutulan mətləbi, sözü ifadə vasitələri sirli-sehirlidir. Bunları səs və ahənglə, rəng və çalarlarla ifadə etmək mümkün deyil. Onun naxış dili bir ayrı dildir. Bəzən zərif, bəzən də kobud görünə bilən naxışlar belə sanki sehirli məktub parçalarıdır. Sadəcə, işarələri anlamaq, naxışları duymaq gərəkdir ki, bu "məktub"ları oxuya biləsən.

Ustad sənətkarla çox zaman sərgilərdə görüşürük. Hərdən olur ki, əlimlə onun əsərlərinə toxunur, barmaqlarımı onun əlindən həyat iksiri almış, sevgi dolu naxışlarda gəzdirirəm. Bu zaman ustadın əllərinin hərarətini hiss edirəm. Daşa dönmüş ağac parçası belə heç vaxt soyuq olmur. Bu hərarət, bu ülvi eşq həmin əsərlərin üzərində rəssamın "imza"sıdır.



Saləddin Məhərrəmovun uğurları "Zaqafqaziya gənc rəssamların qrafika və rəngkarlıq əsərlərindən ibarət sərgilər"də, "Dekorativ tətbiqi sənət sərgiləri"ndə, "Xalq yaradıcılığı-Qədim sənətlər silsiləsində" eləcə də "Tətbiqi sənət ustalarının işlərində İslami dəyərlər çərçivəsində" təşkil olunan sərgilərdə təsdiqini taparaq möhürlənib. Təbiət kompozisiyalarını, eləcə də fəlsəfi və mistik həyatı yaradıcılığında geniş əks etdirən sənətkar bu günə kimi 60-dan artıq sənət əsərini ustalıqla ərsəyə gətirib. Onun "Qədim yurd yerlərimiz", "Mənim Kəpəzim", "Nar budağı" və digər əsərləri son dərəcə maraqla qarşılanıb.

Bu gün ustad sənətkar həmçinin tarixi şəxsiyyətlərin portret cizgilərini özündə əks etdirən orijinal səpkili silsilə əsərlər üzərində işləyir. "Nizami Gəncəvi", "Şah İsmayıl Xətai", "Cavad xan", "Səlahəddin Əyyubi" kimi ağac üzərində oyma portretlər bunun uğurlu nümunələridir.

Vətən müharibəsi və bu tarixin Zəfər salnaməsi də sənətkarın yaradıcılıq aləmində mühüm yer tutur. "Ana bətnindən dəmir yumruqla gələn Azərbaycan əsgəri", "Ömər aşırımı", "Xüdafərin körpüsü", "Qarabağ mənzərələri", "Alban türk məbədləri", "Ana məhəbbəti", "Şəhid anasının ürəyi" kimi orijinal oyma işləri tarixi Zəfərin sənət salnaməsinə çevrilib.




Bir sözlə, Saləddin Məhərrəmov yaradıcılığında ənənəvi xətti perspektiv ideya ilə çulğalaşdıra, klassikanı intuitiv olaraq reallıqla harmoniyada yarada bilir.

***Anar Ərtoğrul BURCƏLİYEV***
**Gəncə**

# Bədii söz zorakılığa "Yox!" deyir



**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Ulduz" jurnalı ilə birlikdə keçirdiyi, iki aydan çox davam edən "Məişət zorakılığına yox deyək!" mövzusunda hekayə müsabiqəsinə yekun vurulub.**

AYB-nin Natəvan klubunda təşkil edilən "Zorakılığa səssiz qalma!" mövzusunda mərasimdə "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəs mövzunun aktuallığını önə çəkərək dedi ki, gənc nəsildə tolerantlıq, dözümlülük, məişət zorakılığının aradan qaldırılması xüsusilə vacib məsələdir. İstənilən zorakılığa qarşı olan ədəbiyyatçılar bu mövzunu da gündəmdə saxlamalıdırlar. Bu məqsədlə keçirilən müsabiqəyə heç bir yaş senzinin qoyulmaması yazarların problemə biganə qalmadığını göstərir.

İSİM-in direktoru Qəhrəman Haqverdiyev dünyada insanların müəyyən qisminin məişət zorakılığına məruz qaldırdığını və buna görə də hər kəsin bu problemlə bağlı maarifləndirilməsinin vacibliyini vurğuladı. Direktor müsabiqədə qalib gələn hekayələrin kitab halında çap olunmasını təklif etdi.

Müsabiqənin münsiflər heyətinin sədri, ədəbiyyatşünas Seyfəddin Hüseynli təqdim olunan hekayələrin bədii məziyyətlərindən danışdı və əsərlərin ədəbi norma və tələblər nəzərə alınmaqla, obyektiv qiymətlədirildiyini deyərək, qaliblərin sırasında yeni imzamaların olmasından məmnunluğunu bildirdi. Təklif edildi ki, qalib hekayələr radioda səsləndirilsin, televizya vasitəsi ilə ekranlaşdırılsın.

Sonra İSM-in şöbə müdiri Laura Quliyeva məişət zorakılığının psixoloji yöndən qadınlara və kişilərə təsirindən danışaraq bildirdi ki, bu, son nəticədə stress yaradır, bir sıra xəstəliklər əmələ gətirir. Məqsəd həm də bütün bunların qarşısına ictimai sipər çəkilməsidir. Gələcəkdə AYB ilə bu sahədə birgə fəailiyyət göstərməyin cəmiyyətə fayda verəcəyi bildirildi.

Sonda müsabiqədə qalib gəlmiş müəlliflər Arif Rəhimov ("Zərif və kövrək məxluq"), Azər Musaoğlu ("Fidan"), Fatimə Bayramova ("Bağlı qapı arxasında"), Maya İmran ("Humay Atabəy"), Rəşid Bərgüşadlı ("Otit"), Şəfa Vəli ("Quşxanadan reportaj") və Zemfira Məhərrəmli ("Ailə sənin məbədindir") mükafatlandırıldılar.

**Fuad CƏFƏRLİ**
**XQ**

# ABŞ-də söz azadlığı “söz”ə çevrilir

**Hazırda bütün dünyada söz azadlığının böhranı dərinləşməkdədir. Bəlkə də sözümü qəribliyə salıb dərhal mənə Qərbi, hətta söz azadlığının lideri saydığınız ABŞ-ı nişan verəcəksiniz. Amma məsələ burasındadır ki, bu gün söz azadlığını hədəfə alan əsas ölkələrdən biri də elə azadlığa möhtəşəm abidə ucaldan Birləşmiş Ştatların özüdür. Bu qənaətimizin müəyyən məqamlarını Vaşinqtonun “WikiLeaks”-in təsisçisi Culian Assanja qarşı dövlət səviyyəsində aramsız təqiblərinin nümunəsində açıqlamışdıq. Hətta onu da qeyd etmişdik ki, Ağ evin demokratiya və söz azadlığını onun siyasətinə tabe olmayan ölkələrə qarşı təziyq alətinə çevrilib.**

Bu, təkcə mənim gəldiyim qənaət deyil, çünki ABŞ-ın yürütdüyü xarici siyasətin mahiyyətindən irəli gəlir. Bunu bu ölkənin politoloqları, Ağ evin siyasi mətbəxindən yetərincə xəbəri olan keçmiş dövlət məmurları da dəfələrlə etiraf ediblər. Məsələn, Dövlət Departamentinin keçmiş əməkdaşı Mayk Benç deyib: “İnternet meydana çıxandan söz azadlığı ABŞ-ın xüsusi xidmət orqanları tərəfindən başqa dövlətlərdə etirazlar və dövlət çevrilişləri təşkil etmək üçün istifadə edilib”.

Etiraf etmək lazımdır ki, bütün dünya indi çox mürəkkəb informasiya mərhələsini yaşayır. İki ildən artıqdır ki, davam edən Ukrayna – Rusiya müharibəsi, bu ilin payızından Qəzza zolağında bəşəriyyətin gözü qarşısında davam edən qırğınlar istər-istəməz yalan məlumat və ya zorakılıq çağırışları ehtiva edən nəşrlərin və şərhlərin kütləvi yayılmasına səbəb olub. Əslində elə bunun özü də söz azadlığına qəsddir. Lakin bunu bəhanə edib söz azadlığını hədəfə almaq demokratik prinsiplərə nə dərəcədə uyğundur?

İsrailli jurnalist Yevgeni Erlix deyir: “Söz azadlığı dövrü, demək olar ki, başa çatıb və ya qorxulu böhran mərhələsinə daxil olub. ABŞ-da Tramp prezident olanda söz azadlığı orada bitdi. O zaman KİV gözlənilmədən müəyyən siyasi mövqe tutdu və bu və ya digər tərəfi “batırmağa” başladı. “Facebook” bu mənada ən böyük Amerika KİV-ni təkrarlayır və ya üzünü köçürür”.



Bu gün biz, həqiqətən müasir nəsli əsaslı şəkildə dəyişən total informasiya inqilabını müşahidə edirik. Yuxudan oyanan kimi ayfonu yandırır, onunla yatırıq. İnformasiya artıq bizim cismimizə, libasımıza, düşüncə tərzimizə çevrilib. Belə bir tarixi mərhələdə söz azadlığının yeni normaları formalaşır! Bizim tanıdığımız söz azadlığı artıq yoxdur, o ölüb. İndi söz azadlığının yeni normaları var və biz bu informasiya dünyasının hara gedəcəyini anlamırıq. Manipulyasiya etmək çox asandır: sosial şəbəkələr manipulyasiya edilir, media manipulyasiya edilir və indi Rusiya-Ukrayna, HƏMAS-İsrail müharibələri fonunda hər tərəfdən manipulyasiyalar görürük. Elə Cənubi Qafqaz regionunda, Ermənistan-Azərbaycan münasibətlərində də eyni tendensiyanın şahidi oluruq.

Bəlkə belə manipulyativ bir dünyada söz azadlığını, ümumiyyətlə, yığışdırıb rəfə qoymağın vaxtı çatıb. Amma sonra nə baş verəcək, bundan sonra necə yaşayacağıq və informasiya ilə necə işləyəcəyik? Əlbəttə, bu gün insan intellektinin əsas xüsusiyyəti informasiya ilə işləməyi bacarmaqdan ibarət olmalıdır. İndi insanları, xüsusilə yeni yetişən nəsilləri informasiya ilə işləməyə öyrətmək lazımdır. Çünki yenə qeyd edirəm ki, söz azadlığı özünün əzəli mahiyyətini artıq itirib, o artıq yoxdur.



Şübhəsiz, jurnalist olaraq mən söz azadlığının yaşamasının tərəfdarıyam! Ona görə ki, dünyada çox fərqli mövqelər var. Düşüncələrimiz, dəyərlərimiz və mədəniyyətimiz fərqlidir və bu, yaxşıdır. Dünya çox rəngarəngdir. Ona görə də mən müxtəlif fikirlərin dərc olunmasının tərəfdarıyam, amma bir şərtlə ki, biz cəmiyyət olaraq bu məlumatlarla necə işləməyi və bu informasiyadan necə istifadə edəcəyimizi bilməliyik. “İnstaqram”da, “Facebook”da oxuduqlarımızı seçməyi və tənqidi düşünməyi bacarmalıyıq. Amma bilmirik. Biz hələ öyrənirik. İndi də “TikTok” cəmiyyətin həyatının az qala ayrılmaz hissəsinə çevrilib. Əslində bugünkü söhbətimizin əsas mövzusu da elə budur.

Son günlər Birləşmiş Ştatlar “ByteDance”ni təsisçisi olduğu “TikTok”u satmağa məcbur etmək istəyir və bu platformanı, ümumiyyətlə, ölkədə bloklamaqla hədələyir. Əslində bu, Vaşinqtonun Amerikada “TikTok”u bloklamaqla bağlı ilk cəhdi deyil. 2020-ci ildə sabiq ABŞ prezidenti Tramp tətbiqin istifadəsini məhdudlaşdırmaq istəsə də, məhkəmə bu təşəbbüsü rədd edərək, əleyhinə qərar vermişdi. Belə olan halda, 2022-ci ilin sonunda Konqres dövlət işçilərinə dövlət cihazlarında sosial şəbəkədən istifadə etməyi qadağan etdi. Keçən il Ağ ev administrasiyaya “TikTok” və digər xarici texnologiyaların milli təhlükəsizliyə təhdid yaratdığı təqdirdə onları bloklamaq üçün yeni səlahiyyətlər verən qanunvericiliyi dəstəklədi. Lakin sonra bu sənəd səsverməyə çıxarılmadı.

Faktlar göstərir ki, Birləşmiş Ştatlar tətbiqin bloklanmasında deyil, məcburi satışında daha çox maraqlıdır. Tramp o zaman bildirmişdi ki, “TikTok”un sahibi Amerika şirkəti olmalıdır. O, misal olaraq “Microsoft”u göstərmişdi.

Ötən ilin martında ABŞ-ın Xarici İnvestisiyalar Komitəsi sosial şəbəkənin səhmlərinin satışı ilə bağlı tələb irəli sürdü. Yeni qanun layihəsi onu göstərir ki, Amerika hakimiyyəti hələ də bu ideyadan əl çəkməyib. Ona görə də Vaşinqton bu kontentə qarşı rəsmi səviyyədə ən müxtəlif iddialar irəli sürür.

Məsələn, Amerika kəşfiyyatı Çinin noyabrda ABŞ-da keçiriləcək ümumi seçkilərə təsir etmək üçün “TikTok” sosial şəbəkəsindən istifadə edə biləcəyini iddia edir. ABŞ Milli Kəşfiyyatının direktoru Evril Heyns Nümayəndələr Palatasının kəşfiyyat üzrə xüsusi komitəsində Pekinin ABŞ-da keçiriləcək seçkilərə təsir etmək üçün “TikTok-dan istifadə edib-etməyəcəyinə dair dinləmələrdə deyib: "Biz ÇKP-nin (Çin Kommunist Partiyası - XQ) bundan istifadə edə biləcəyini istisna edə bilmərik.”

Dinləmələrdə iştirak edən Federal Təhqiqatlar Bürosunun (FTB) direktoru Kristofer Rey də “TikTok” sosial şəbəkəsini milli təhlükəsizliyə təhdid kimi gördüyünü təsdiqləyib. FTB direktoru bildirib: "Mən “TikTok” və onun milli təhlükəsizliklə bağlı yaratdığı narahatlıqlarım barədə çox açıq danışdım. Biz “TikTok”u FTB-nin istifadə etdiyi bütün cihazlarda qadağan edirik".

Bir müddət əvvəl Amerika Prezidenti Co Bayden ölkədə “TikTok” sosial şəbəkəsinə qadağa qoyulmasının mümkünlüyünü nəzərdə tutan qanun layihəsinin ABŞ Konqresi tərəfindən təsdiqlənəcəyi təqdirdə, bu sənədi imzalayacağını açıqlamışdı. Layihə “TikTok” ilə “ByteDance” də daxil olmaqla, “Çin tərəfindən idarə olunan istənilən qurum” arasında əlaqələri kəsmək məqsədi daşıyır. Qanun layihəsinin müəllifləri şirkətə sosial şəbəkəni satmaq üçün 6 ay vaxt verirlər. Əgər buna əməl edilməsə, o zaman “TikTok”un ABŞ-da yayılmasına, o cümlədən müvafiq tətbiqin şəbəkə platformalarında yerləşdirilməsinə qadağa qoyulacağı gözlənilir. ABŞ qanunvericiləri eyni tədbirləri gələcəkdə istənilən “düşmən tərəfindən idarə olunan tətbiqlərə” şamil etməyi təklif edirlər. Sual doğur, dünyanın bir çox ölkələri üçün dost hesab edilməyən ABŞ-ın özünə məxsus olan sosial şəbəkə platformalarına eyni münasibət göstərilsəydi, bunu necə dəyərləndirərdilər? Əlbəttə, “söz azadlığının boğulması” kimi...

“Amerikalıları nəzarət edilən xarici düşmən tətbiqlərindən müdafiə haqqında qanun” respublikaçı Mayk Qallaxer və Demokrat Raca Krişnamurti tərəfindən hazırlanıb. Təklif olunan tədbir milli təhlükəsizlik problemlərinin həlli üçün nəzərdə tutulub. Qallaxer qanunun zəruriliyini belə izah edir: "Amerikanın ən böyük rəqibinin ABŞ-da dominant media platformasına nəzarət etmək hüququ yoxdur".

Çin şirkəti artıq təklif olunan məhdudiyyətlərdən narazılığını bildirib. “Müəlliflər ört-basdır etməyə çalışsalar da, bu qanun layihəsi “TikTok”a açıq qadağadır. Qanun 170 milyon amerikalının Konstitutsiyanın Birinci düzəlişində nəzərdə tutulan hüquqlarını pozur”, - deyə “Reuters” “ByteDance” nümayəndəsindən sitat gətirir. Haqlı deyilmi?!

Amerika Vətəndaş Azadlıqları Birliyi də yeni qaydaya qarşı çıxıb və qanun layihəsinin konstitusiyaya zidd olduğunu bəyan edib. Birliyin baş siyasi müşaviri Cenna Leventoff deyib: "Liderlərimizin bir daha seçki ilində bizim Birinci düzəliş hüquqlarımızı ucuz siyasi xallarla dəyişməyə çalışmasından son dərəcə məyus olduq".

Çinin rəsmi qurumları da xidmətin satışına qarşı çıxırlar. Ticarət Nazirliyi bu ehtimalı şərh edərək qeyd edib ki, sövdələşmə texnologiyanın ixracını nəzərdə tutur və bunun üçün Çin hökuməti tərəfindən təsdiq tələb olunur. Pekin isə böyük ehtimalla buna icazə verməyəcək.

ABŞ-ın “TikTok”a qarşı əsas ittihamlarından biri də amerikalı istifadəçilərin məlumatlarının Çin hökumətinə ötürülməsi ehtimalıdır. Şirkət bütün ittihamları əsassız adlandıraraq bunu rədd edir. Kontentin baş direktoru Şou Czı Çu deyib: “TikTok” heç vaxt ABŞ istifadəçilərinin məlumatlarını Çin hökuməti ilə paylaşmayıb və ya bu barədə sorğu qəbul etməyib. Əgər belə bir tələb olsaydı belə, “TikTok” bu tələbi qəbul etməzdi”.

Bununla belə, KİV-də Çinin amerikalılar haqqında məlumatlara çıxışı olduğunu göstərən bir neçə araşdırma dərc olunub. Məsələn, 2022-ci ildə “BuzzFeed News”un hesabatından məlum olub ki, Çində “ByteDance” əməkdaşları məlumatların fiziki olaraq harada saxlanmasından asılı olmayaraq, ABŞ istifadəçiləri haqqında məlumatları görə bilirlər.

Ekspertlərin fikrincə, sosial şəbəkəyə potensial qadağa ABŞ və Çin arasında münasibətlərə mənfi təsir göstərəcək, gərginliyi daha da artıracaq və geosiyasi mübahisələr üçün yeni zəmin yaradacaq. Hadisələrin bu cür inkişafı rəqəmsal məkanda qarşıdurmanın daha da kəskinləşməsinin xəbərdarlıq siqnalı ola bilər ki, bu da öz növbəsində qlobal ticarətə, investisiyalara və strateji tərəfdaşlığa təsir göstərməyə bilməz.

Amma bu məsələdə deyəsən, ən doğrusunu elə amerikalı milyarder sahibkar İlon Mask deyib. O, martın 12-də X sosial şəbəkəsindəki səhifəsində “TikTok” qadağasını ABŞ prezidenti Co Baydenə təkcə proqramı deyil, internetdəki saytları qadağan etmək səlahiyyətini “Troya atı” adlandıran ABŞ konqresmeni Tomas Massinin fikrinə münasibət bildirərkən yazıb: “ABŞ rəhbərliyinin niyyəti ölkədə təkcə “TikTok” sosial şəbəkəsini qadağan etmək deyil, həm də senzuranı və hökumətin media üzərində nəzarətini gücləndirməkdir. Bu qanun təkcə “TikTok”a aid deyil, senzura və hökumət nəzarəti haqqındadır! Əgər biz yalnız “TikTok”dan danışsaydıq, problem yalnız “xarici nəzarət” olardı”.

ABŞ rəsmi saytlarından hansındasa oxumuşdum ki, “mətbuat azadlığı ABŞ-da ən mühüm azadlıqlardan biri hesab edilir və Birləşmiş Ştatların qurucu-ataları tərəfindən 1791-ci ildə qəbul edilmiş Konstitusiyaya əlavə edilən “Birinci düzəliş”lə qorunur. İndi isə kəskin olaraq bu qərara gəlmək olar ki, ABŞ-ın indiki ataları artıq bu düzəlişdən çox asanlıqla canlarını qurtarırlar. Bu yerdə sual yaranır: Görəsən, Vaşinqton bundan sonra özünə tabe etmək istədiyi ölkələrə söz azadlığının pozulması iddiası ilə necə təzyiq göstərəcək?

***İlqar RÜSTƏMOV***
***XQ***

**Hindistanda vətəndaşlıq haqqında qanuna 5 il əvvəl qəbul edilmiş düzəlişlər qüvvəyə minib. Bu o deməkdir ki, əvvəllər Pakistan, Banqladeş və Əfqanıstanda yaşamış dini azlıqlar - hindular, siqhlər, caynlar, buddistlər və xristianlar asanlıqla Hindistan vətəndaşlığını ala bilərlər. Problem ondadır ki, 2019-2020-ci illərdə müsəlmanlar bu qanunu ayrı-seçkilik hesab edirdilər və bu, ölümlə nəticələnən icmalararası toqquşmalara səbəb olurdu. Belə hadisələrin qarşısını almaq üçün Dehlidə və çox sayda müsəlmanın yaşadığı digər şəhərlərdə polis küçələrdə əlavə patrul dəstələri yerləşdirib.**

“Reuters” yazır ki, qanun müsəlmanların çoxluq təşkil etdiyi Cənubi Asiya ölkələrindən 2015-ci ilin əvvəlindən qabaq dini təqiblərdən Hindistana gələn dini icmaların nümayəndələrinə Hindistan vətəndaşlığının verilməsini nəzərdə tutur. Hökumət yeni küçə döyüşlərinə səbəb ola biləcəyindən ehtiyat edərək qanunun icrasını gecikdirirdi. İnsan haqları və müsəlman fəallar qanunun ölkənin 200 milyonluq müsəlmanı üçün qeyri-bərabər mövqe yaradacağını deyirlər. Bəzi sərhəd əyalətlərində, məsələn, Assamda müsəlmanlar özləri heç bir sənəd olmadan Hindistana köçmüşdülər. İndi bu insanlar deportasiya oluna biləcəyindən qorxurlar. Hökumət kiminsə vətəndaşlığını əlindən almaq planlarını inkar edir və beş il əvvəlki etirazlarda təxribatçıların əli olduğunu vurğulayır. Daxili İşlər Nazirliyindən bildirilib ki, heç kim vətəndaşlıqdan məhrum edilməyəcək.

# Hindistan dini azlıqlara vətəndaşlıq verir

## Müsəlmanlar isə yenə yad sayılırlar



Bu qanunun qüvvəyə minməsinin aprel-may aylarında keçiriləcək parlament seçkiləri ilə bağlı olduğunu hökumətin özü də inkar etmir. Baş nazir Narendra Modinin sözçüsü hakim Bharatiya Janata Partiyasının (BJP) qanunun icrasını hələ 2019-cu ildə seçki manifestinə daxil etdiyinə diqqət çəkib. Əhali arasında aparılan sorğular N.Modinin parlament seçkilərində qalib gələcəyini göstərir. Əsas müxalifət partiyası olan Hindistan Milli Konqresi (INC) qanunun müsəlmanlarla hindular arasında, xüsusən də müsəlmanların yaşadığı Assam və Qərbi Benqal kimi əyalətlərdə gərginliyi daha da artıracağını bildirib. Bu ştatlarda əvvəllər də qanuna qarşı etirazlar keçirilib.

TASS-ın yazdığına görə, Qərbi Benqalın baş naziri Mamata Banerji bildirib ki, hakim BJP partiyası siyasi xal toplamaq üçün yenidən vətəndaşlıq qanununu qəbul edib: “Amma icazə verin açıq deyim - sağ olduğum müddətcə Benqalda buna (qanunun tətbiqinə -red.) icazə verməyəcəyəm”. Hindistan Kommunist Partiyasının rəhbərlik etdiyi cənub Kerala əyaləti də mübahisələrdən kənarda qalmayıb. Ştatın baş naziri Pinarayi Vijayan hökumətin məqsədinin icmalararası qarşıdurmanı artırmaq və konstitusiyanın dünyəvi mahiyyətini sarsıtmaq olduğunu bildirib.

**S.ELAY**
**XQ**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

kafedralarda boş olan vəzifələri tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

Bədii keramika, şüşə və metal – 1 ştat, dosent – 1 yer.
Akademik rəngkarlıq və kompozisiya – 1 ştat, dosent – 1 yer.
Memarlıq – 0,5 ştat, dosent – 1 yer.
Geyim dizaynı – 1 ştat, dosent – 1 yer.
Dizayn – 1 ştat, dosent – 1 yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədləri təlimata uyğun olaraq bu ünvana göndərmək lazımdır.
Ünvan – Bakı, H.Əliyev prospekti 58.

**Rektorluq**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələr üçün qızdırıcı elementlərin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 29-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177
Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

“Sabunçuavtomatikaquraşdırma” ASC səhmdarlarının nəzərinə!

2 may 2024- cü il saat 10.00-da səhmdar cəmiyyətin illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Səhmdar cəmiyyətin 2023-cü il üçün balans yekunlarının təhlili və təsdiqi.
2. Dividendlərin bölüşdürülməsi. 3. 2024- cü ildə qarşıda duran məsələlər.
Bütün səhmdarların iştirakı vacibdir.
Telefonlar – 450-93-19, 450-98-26.
Ünvan – Bakı şəhəri, Sabunçu qəsəbəsi, Ə.Bağırov küçəsi 10.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 57 (30461) 14 mart 2024-cü il, cümə axşamı

# "Bayer"lə dördüncü dəfə qarşı-qarşıya

## "Qarabağ" Bakıda itirdiyi xalları Leverkuzendə tapa bilər

**Bizə belə cəsarətli qənaətə gəlməyi möhtəşəm uğurları ilə aləmə səs salan Ağdam komandası özü öyrədib. Çox da uzağa getməyib, təkcə son illərdə Azərbaycan çempionunun neçə-neçə ölkədə avrokubok yarışları sınağından şərəflə çıxdığını yada salaq. Qazaxıstanda "Kayrat", Polşada "Legiya", Macarıstanda "Ferentsvaroş", İsveçdə "Hekken" üzərində qələbələr xatirələrdə hələ təzədir. Elə buna görə də futbol pərəstişkarlarımız bu gün Bakı vaxtı ilə gecəyarısı starta çıxacaq Leverkusen matçında yenə "Qarabağ"dan mükəmməl oyun, yenilməz qələbə əzmi gözləyirlər. Kiminlə oynadığımızı yaxşı dərk etsək də, dörddəbir finalın astanasında daha bir tarixi zəfərin şahidi olacağımıza inamımız az deyil.**



Ötən ilin payızından bəri dost-rəqiblərin dördüncü görüşünün əhəmiyyəti əvvəlki üç oyundan onunla fərqlənir ki, bu dəfə onlar daha mühüm sınaqda üz-üzə gələcəklər. Uduzan Avroliqa ilə vidalaşacaq, qalib komanda isə dörddəbir finalda yoluna davam edəcək. "Bayer" ilə görüşlərin nəticələrinə əsaslansaq (böyük hesabla məğlubiyyət, son dəqiqələrdə penalti ilə çempionundan və onun azarkeşlərindən çox, almaniyalı qonaqların sevindikləri də heç kimin gözündən yayınmadı. Bu isə tam şəkildə təsdiq edirdi ki, meydanda hadisələrin gedişinə nəzarətin əsasən bizimkilər tərəfində olduğu görüşdən sonra məğlubedilməz məşqçi Xabi Alonsonun, etiraf etdiyi kimi, onun komandasının bəxti gətirmişdi.

Almaniya çempionatının şə-



uduzduğumuz oyun, 90+2-də itirdiyimiz qələbə), belə bir fikrə gələ bilərik ki, "BayArena"da "Qarabağ" fırtınası baş verə bilər. İki məğlubiyyət və bir heç-heçədən sonra qələbəni bayram etmək vaxtı çatmışdır.

Bakıda "Bayer"in 34 oyundan ibarət məğlubiyyətsiz görüşlər seriyasını dayandırmağa dəqiqələr qalırdı. Həmin rekord göstəricinin 35-ə böyük çətinliklə çatdırıldığını hamı gördü. Yağışlı havada "Tofiq Bəhramov" stadionunda qeydə alınan "dinc" nəticəyə (2:2) Azərbaycan riksiz lideri Azərbaycan Premyer Liqasının növbəti qızıl medallar dəstinin yarım addımlığında olan "Qarabağ"ın güclü təzyiqindən, hər halda, xilas yolu tapa bildi. Maestro Alonsonun dediyi kimi, bəxt amili onların xeyrinə oldu. Qonaqlar bərabərlik qoluna əlavə vaxtda ürəkdən sevindilər.

Kim bilir, bu gecə futbol aləmi, bəlkə də, yenə gur səslə "Qarabağ" haqqında danışacaq. "Braqa" (Portuqaliya) ilə hər iki pley-off görüşündən, paytaxtımızda Bundesliqa klubu ilə səkkizdəbir finalın birinci raundundan sonra məhz belə olmuşdu. Bu, təsadüfi deyil. Azərbaycanın 1 nömrəli klubu tarixində ən böyük nailiyyəti ilə diqqət mərkəzindədir. Elə milli komandaların məşqçilərinin də onun oyunçularına diqqəti artmışdır. Məsələn, bu yaxınlarda Çernoqoriya yığma komandasının baş məşqçisi vəzifəsinə dəvət olunmuş, yaxın keçmişdə Azərbaycan millisini də çalışdırmış xorvatiyalı mütəxəssis Robert Prosineçkinin Çernoqoriya futbolunun "Qarabağ"dakı Marko Yankoviç-Marko Veşoviç tandemini martın üçüncü ongünlüyündə Antalyada Belarus və Şimali Makedoniya ilə yoldaşlıq görüşlərinə çağırması, qapıçımız Andrey Lunyovun da Rusiya komandasına namizədlər sırasında olması, xarici klubların getdikcə daha çox oyunçumuzla maraqlanması çox şeydən xəbər verir.

Məşqçilik bacarığı Avropa futbol dairələrində gündən-günə daha yüksək qiymətləndirilən Qurban Qurbanovun komandası "Braqa" ilə hər iki oyunda, "Bayer" ilə Bakı qarşılaşmalarında sübut etdi ki, səkkizdəbir finalın ikinci raundunda Leverkuzendə də rəqibi ilə bərabər səviyyədə oynamağa qadir kollektivdir.

"Qarabağ" UEFA Avropa Liqası turnirində dörddəbir finala çıxmaq, qürur doğuran tarixinə yeni, əvvəlkilərdən də parlaq səhifə yazmaq imkanını özündə saxlayır. Bu imkandan faydalanmaq arzusu təkcə Azərbaycan xalqının deyil, qarşıdakı görüşə birbaşa hadisə yerində şahidlik etməyə hazırlaşan Almaniyadakı, digər xarici ölkələrdəki həmvətənlərimizin, türkiyəli qardaşlarımızın istəyidir.

Hər bir işdə, o cümlədən, idmanda qüvvəyə inam mühüm şərtdir. Futbolçuları kimi, özü də yüksək keyfiyyətli işi ilə xarici klubların maraq dairəsində olan baş məşqçimiz Q.Qurbanov bu vacib keyfiyyəti kollektivə yaxşı aşılamışdır. Komanda məhz öz qüvvəsinə möhkəm inam sayəsində Avroliqanın pley-off səddini də aşıb, dörddəbir finala yaxınlaşmışdır. İndi isə ölkə çempionumuz bu məqsəd uğrunda mübarizədə son döyüşünə çıxacaq. Biz də öz növbəmizdə, həmişəki kimi, "Hamılıqla səninləyik və uğurlar, "Qarabağ" deyirik!

**P.S.** "Bayer" Bundesliqanın növbəti turunda "Volfsburq"a qalib gəlməklə (2:0) seriyanı 36-ya çatdırmış, "Qarabağ" da Almaniyaya "Zirə" üzərində qələbə ilə yola düşmüşdür (3:1). Hər iki komanda yaxşı əhvaldadır. Bu gün onlardan biri yenə meydanı sevinclə tərk edəcək. Maraqlıdır, məhz kim?

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Çiriş: dadlı kətə, iltihaba çarə

**Yazın əvvəllərində yerdən topa-topa çıxan çirişin yarpaqları yaşıl rəngin ən tünd çalarlarında olur, formasına görə erkən yazda qar altından boy göstərən nərgizi xatırladır. Kökləri kəndirəbənzər, təxminən 25 santimetr uzunluğunda olur və lətlidir. Sarı və qırmızı rəngdə olan çiçəkləri gözəl görünüşə malikdir.**



Xalqımızın qədim kulinariya mədəniyyətində çirişdən hazırlanan kətə və qutab özünəməxsus dadı ilə seçilir. Onun yarpaqlarından hazırlanan buğlama, sıyıq, kətə, qutab və s. xörəklər orqanizmin müxtəlif vitaminlərlə təmin edilməsi və möhkəmləndirilməsinə kömək edir. Kətə və qutab bişirmək üçün ona soğan, dağkeşnişi və quzuqulağı əlavə edilərək doğranır, qarışığa azacıq duz qatılaraq adi qaydada kətə, yaxud qutab bişirilir. Çiriş kətəsi mədə-bağırsaq, xüsusən kolit xəstəliyi zamanı çox xeyirlidir.

Çiriş tozu təzə bəçə balı ilə qaynadılır və azacıq qatılaşana yaxın götürülür. Hazırlanan məlhəm sınıq və çıxıqlarda, çiban və dolama tipli irinli yaraların müalicəsində istifadə edilir.

Çiriş köklərindən hazırlanan yapışqandan cildləmədə, papaq və çəkmə istehsalında istifadə edilir və həmin yapışqana su dəymədikdə uzun illər öz keyfiyyətini saxlayır.

***XQ***

## İdman

# AFFA 3 klubu cərimələyib

**AFFA-nın İntizam Komitəsinin növbəti iclasında Azərbaycan Premyer Liqasının XXVI turunun matçlarında qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**




"Kəpəz" azarkeşləri "Neftçi" ilə oyunda matçın rəsmi şəxslərinin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirdiklərinə görə Gəncə təmsilçisi 1000 manat cərimə edilib.

"Araz-Naxçıvan"-"Turan Tovuz" görüşündə futbolçular sarı vərəqə aldıqlarına görə hər iki klub 700 manat cərimələnib.

Naxçıvan təmsilçisinin futbolçusu Vüsal Şabanov hakimi təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 4 oyun cəzalanıb. Bu, bölgə klubunu 3000 manat ziyana salıb.

# Avrovoleybol – 2026 Azərbaycanda olacaq

**Azərbaycan qadın voleybolçular arasında Avropa çempionatına ev sahibliyi edəcək.**



Gürcüstanla birgə keçirdiyi AVRO-2017-dən 9 il sonra yenidən bu hüquqa sahib olan Azərbaycan 4 qrupdan birinə evsahibliyi edəcək. Qarşılaşmalar 2017-ci ildə olduğu kimi, Milli Gimnastika Arenasında təşkil olunacaq. Serbiyanın çempion olduğu həmin yarışda Azərbaycan Avropanın ən güclü dörd komandasından biri olub.

2026-cı il yayın sonuna planlaşdırılan turnirdə ümumilikdə Avropanın 24 ən yaxşı komandası iştirak edəcək. Bu komandalardan altısı məhz Bakıda mübarizə aparacaq. Azərbaycanla yanaşı, Çexiya və İsveçin AVRO-2026-ya birgə evsahibliyi edəcəyi artıq təsdiqlənib.

# Ölkəmiz antidopinq simpoziumunda

**İsveçrənin Lozanna şəhərində Ümumdünya Antidopinq Agentliyinin (WADA) 2024-cü il üçün illik simpoziumu keçirilib.**



Qlobal antidopinq səylərini inkişaf etdirmək məqsədi daşıyan mötəbər tədbirdə ölkəmizi Azərbaycan Millli Antidopinq Agentliyinin (AMADA) icraçı direktoru Təhminə Tağızadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Avropa Komissiyasının tərəfdaşlığı ilə keçirilən sessiyalar Avropada məlumatların toplanması və təhqiqat bacarıqları, habelə antidopinq ictimaiyyətində müqayisə meyarlarını əhatə edib. Tədbirdə, həmçinin Ümumdünya Antidopinq Məcəlləsinin milli qanunvericilik əsasında tətbiqi və quru qan nümunələrinin yoxlanılması kimi məsələlər də müzakirə mövzusu olub.

***Leyla SABİRQIZI***
***XQ***

## Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Gecə 4-7°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunundan 766 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 1-6° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Texnologiya

# "İnstagram" redaktə edir

**Bir çox mesencerlərdə tətbiq edilən göndərilmiş mesajların redaktəsi funksiyası "İnstagram"a da aid edilib. Belə ki, şəbəkə istifadəçiləri göndərilmiş mesajları redaktə edə biləcəklər.**




Əvvəllər istifadəçi "İnstagram"da göndərdiyi mesajı redaktə edə bilmədiyindən onu silib səhvləri düzəltdikdən sonra yenidən göndərməli idi. İndi isə göndərilmiş mesajı 15 dəqiqə ərzində redaktə etmək mümkün olacaq. Bunun üçün mesajın üzərinə klikləyərək saxlamaq lazımdır. Sonda istifadəçiyə "Redaktə olundu" qeydi göstəriləcək.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3915
SİFARİŞ 569
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00